№ 276 ISSN 1027-3875 31 oktyabr 2009

KHAZAR VIEW

XƏZƏR XƏBƏR



ELMİ-KÜTLƏVİ, BƏDİİ-PUBLİSİSTİK TOPLU

www.khazar.org

ELMİ-KÜTLƏVİ,
BƏDİİ-PUBLİSİSTİK
TOPLU

1995-ci ilin
yanvarından ayda 2 dəfə çıxır

Təsisçi:
XƏZƏR UNİVERSİTƏSİ

Baş redaktor:
Hamlet İSAXANLI

Baş redaktor müavini:
Əlirza BALAYEV

Redaksiya heyəti:
Camal MUSTAFAYEV
Tofiq ABASQULIYEV
Nurəddin RZAYEV
Cəmil HƏSƏNLİ
Bəhlul ABDULLA
Nizami CƏFƏROV
Əfqan ABDULLAYEV
İsmət ƏHMƏDOV

Rəssam:
Rafiq ƏBDÜLRƏHİMOV

Kompüter tərtibatçısı:
Emil MƏMMƏDOV
Fotomüxbir:
Könül ƏLİYEVA
Ünvanımız:
Bakı, Məhsəti küçəsi 11,
("Neftçilər" metrosunun yanı)
Faks: 498-93-79
Telefon: 421-79-16
421-10-93

Şəhadətnamə: 255
İndeks: 67178
Sifariş: 190
Tiraj: 3000

Müəlliflərlə
redaksiyanın mövqeyi
üst-üstə düşməyə bilər
Əlyazmalar geri qaytarılmır
Xəzər Universitəsi
mətbəəsində çap edilmişdir

SCIENTIFIC-POPULAR
LITERARY-PUBLICISTIC
COLLECTION

It has been publishing twice
a month since January, 1995

Founder:
KHAZAR UNIVERSITY

Editor-in-chief:
Hamlet ISAXANLI

Associate editor:
Alirza BALAYEV

Editorial member:
Jamal MUSTAFAYEV
Tofiq ABASQULIYEV
Nurəddin RZAYEV
Jamil HASANLI
Bahlul ABDULLA
Nizami JAFAROV
Afgan ABDULLAYEV
İsmat AHMADOV

Design by:
Rafig ABDULRAHIMOV

Computer graphics:
Emil MAMMADOV
Photoreporter:
Konul ALIYEVA

Address:
11 Mahsati str., Baku,
(near the "Neftchilar" metro)
Fax: 498-93-79
Phone: 421-79-16
421-10-93

Certificate: 255
Index: 67178
Order: 190
Copies: 3000

The opinions of authors
and editors
could be independent
Manuscripts are not returned
Published by
Khazar University Press

OXUYUN

Bu nömrədə




ÇİN NEFT UNİVERSİTETİNİN NÜMAYƏNDƏLƏRİ XƏZƏR UNİVERSİTƏSİNDƏ 5



GÖZƏLLİK, ZƏRİFLİK, MÖCÜZƏ VƏ QAYĞILARIN BİR-BİRİNƏ QOVUŞDUĞU ÖLKƏDƏ - YAPONİYADA 10



Oksana Rəsulova – Rusiyada keçirilən beynəlxalq hind rəqsləri müsabiqəsinin qalibi 22



БЕСПОЩАДНАЯ БЛАГОДАТЬ ОТ ГЕНРИ ФОРДА 24

ОБАНКРОТИВШИЕСЯ ЗНАМЕНИТОСТИ 29





ЖЕНСКИЙ ВОПРОС: КАК ВЫЙТИ ЗАМУЖ? 30

USAQ DÜNYASI
33

UNİVERSİTƏ XƏBƏRLƏRİ

MÜSTƏQİLLİK GÜNÜ MÜNASİBƏTİLƏ MƏRASİM



Oktyabrın 16-da Xəzər Universitəsində Peşə İnkişaf Mərkəzi və Tələbə Məclisinin təşkilatçılığı ilə 18 0ktyabr Müstəqillik Günü münasibətilə mərasim keçirildi. Mərasim Azərbaycan Respublikasının himninin ifası ilə başlandı.


Mərasimin aparıcısı – Humaitar və sosial elmlər fakültəsinin (jurnalistika ixtisası) üçüncü kurs tələbəsi, Tələbə məclisi mətbuat bölməsinin rəhbəri Fərid Hacıyev mərasimi açaraq, giriş sözü söylədi. İctimaiyyət və İş Dünyası ilə Əlaqələr Departamentinin koordinatoru Əlövsət Əmirbəyli məruzə etdi.

Universitənin birinci kurs tələbələri Zeynallı Məhəmməd, Quluzadə Leyla, Xəlilova Aygül, Hümmətov Anar, Sadıqov Ceyhun Müstəqillik Günü mövzusunda hazırladıqları esse-referatlarla çıxış etdilər. Peşə İnkişaf Mərkəzində onlarla PowerPoint Presentation proqramında işləmək və mühazirənin düzgün təqdim edilməsi üzrə məşğələlər aparılmışdı.

Təhsil fakültəsinin dekanı Elza Səmədova, Xəzər Universitəsinin müəllimiləri Vurğun Əyyub, Cabir Məmmədli mərasimdə çıxış etdilər.

Sonda Əlövsət Əmirbəyli esse-referatlarla çıxış edən tələbələrə və Peşə İnkişaf Mərkəzinin əməkdaşı Günel Mustafayevaya mərasimin hazırlanması və keçirilməsində fəal iştirakına görə sertifikat təqdim etdi.

Mərasimdə Xəzər Universitəsinin prorektoru Rafiq Əhmədov iştirak etmişdir.



AZƏRBAYCAN PREZİDENTİ YANINDA ELMİN İNKİŞAFI FONDU YARADILDI

Prezident İlham Əliyev Azərbaycan Respublikası Prezidenti yanında Elmin İnkişafı Fondunun yaradılması barədə sərəncam imzalayıb.

APA-nın məlumatına görə, sərəncamda göstərilib ki, ölkədə fundamental elmi tədqiqatların stimullaşdırılması, təbii resursların, mədəni və tarixi irsin öyrənilməsinin gücləndirilməsi, elmin müxtəlif sahələrində aparılan araşdırmaların səmərəliliyinin artırılması və dünya elmi məkanında Azərbaycan elminin layiqincə təmsil olunmasını təmin etmək üçün belə bir fond yaradılır.

Azərbaycan Nazirlər Kabineti bir ay müddətində Azərbaycan Milli Elmlər Akademiyası ilə birlikdə Fondun nizamnaməsinin layihəsini hazırlayıb prezidentə təqdim edəcək.

Nazirlər Kabineti həmçinin Fondun fəaliyyətinin təşkili üçün müvafiq yerin ayrılması və maddi-texniki təminatı ilə bağlı da zəruri tədbirləri həyata keçirəcək.

Prezidentin digər sərəncamı ilə Elçin Səfəralı oğlu Babayev Azərbaycan Respublikasının Prezidenti yanında Elmin İnkişafı Fondunun icraçı direktoru təyin edilib.

ÇİN NEFT UNİVERSİTETİNİN NÜMAYƏNDƏLƏRİ XƏZƏR UNİVERSİTƏSİNDƏ



Oktyabrın 19-da Xəzər Universitəsinin rektoru, professor Hamlet İsaxanlı Pekindəki Çin Neft Universitetinin nümayəndələrini qəbul etdi. Nümayəndə heyətinin tərkibinə universitetin prorektoru Jiang Qingzhe, Beynəlxalq ofisin direktoru Sun Xudong, Təhsil şöbəsinin dekanı Zhang Yunxiang və Dəstək Şöbəsinin müdiri Çen Guigang daxil idi. Görüşdə təhsil sahəsində qarşılıqlı faydalı əməkdaşlıq məsələləri müzakirə olundu. Tədbirdə Xəzər Universitəsinin prorektoru Məhəmməd Nuriyev və rektor assistenti Aygül Isayeva iştirak etdilər.

Görüşdən sonra Beynəlxalq ofisin direktoru Sun Xudong Çin Neft Universiteti barədə Xəzər Universitəsinin əməkdaşlarına məlumat verdi. Sonra iştirakçılar Psixoloji Məsləhət və Psixoterapiya Mərkəzinin direktoru Ülkər İsayevanın Xəzər Universitəsi, Kompüter Elmləri Departamentinin müdiri Leyla Muradxanlının Mühəndislik fakültəsi, prorektor köməkçisi Şəlalə İmanovanin İqtisadiyyat və menecment fakültəsi barədə hazırladıqları təqdimatlara baxdılar.





BAKIDA İLK KOREYA TƏHSİL SƏRGİSİ



Oktyabrın 20-də Xəzər Universitəsi Peşə İnkişaf Mərkəzinin müdiri Leyla Muradxanlı və mərkəzin əməkdaşları Bakıda "Hyatt Regency" mehmanxanasında Beynəlxalq Təhsilin İnkişafı üzrə Koreya Milli İnstitutu və Koreya Təhsil, Elm və Texnologiya Nazirliyinin təşkilatçılığı, Koreya Respublikasının Azərbaycandakı səfirliyi, Azərbaycan Respublikasının Təhsil Nazirliyi və SEBA Turizm Təşkilatının təşkilati dəstəyi ilə keçirilən 1-ci Koreya Təhsil Sərgisində iştirak etmişlər. Sərgi Koreya ilə Azərbaycan arasında təhsil sahəsində əlaqələri daha da genişləndirmək məqsədi daşıyırdı.

Sərgidə Koreyanın aşağıdakı 13 nüfuzlu ali təhsil müəssisəsi iştirak edirdi: KyungPook Milli Universiteti (KyungPook National University); Koreya Universiteti (Korea University); MokPo Milli Universiteti (MokPo National University); Gimçeon Universiteti (Gimcheon University); Pusan Milli Universiteti (Pusan National University); Seul Milli Texnologiya Universiteti (Seoul National University of Technology); Sunçunyanq Universiteti (Soonchunhyang University); SunqSil Universiteti (SoongSil University); YonSei Universteti (YonSei University); Ulsan Milli Elm və Texnoloiguya Universiteti (Ulsan National Institute of Science & Technology); İnHa Universiteti (InHa University); Pohanq Elm və Texnologiya Universiteti (Pohang University of Science Technology (POSTECH) ;HanYanq Universiteti (HanYang University).

Sərgiyə maraq olduqca böyük idi. Tələbələr öz ixtisaslarına (bakalavr, magistr, Ph.D) uyğun universitetlərlə, Koreyada təhsilin ümumi səviyyəsi ilə maraqlanır, orada təhsil almağın müsbət cəhətləri haqqında soruşurdular. Həmin universitetlərin nümayəndələri isə onları böyük səbr və gülərüzlə geniş bir şəkildə məlumatlandırırdılar. Qeyd edək ki, sərgidə Xəzər Universitəsinin tələbələri də fəal iştirak edirdilər.

Sonda Xəzər Universitəsinin tələbələrinə bir elanı çatdırmaq istərdik. Koreya İnkişaf İnstitutunun (KDI) İctimai Siyasət və İdarəetmə Məktəbi tərəfindən xarici vətəndaşlar üçün aşağıdakı ixtisaslar üzrə magistr və Ph.D. proqramı elan olunur:

Dövlət siyasəti üzrə magistr (MPP);

İqtisadi inkişafda dövlət siyasəti əzrə magistr (MPP/ED);

İnzibati idarəetmədə dövlət siyasəti üzrə magistr (MPP/PM);

Dövlət siyasəti üzrə Ph.D.

Proqram üzrə ümumi tələblər aşağıdakılardır:

Namizəd bakalavr təhsilinə malik olmalıdır (magistr pilləsində təhsil almaq üçün);

Namizəd magistr təhsilinə malik olmalıdır (Ph.D. pilləsində təhsil almaq üçün);

Namizəd ingilis dilini yüksək səviyyədə bilməlidir;

Namizəd iş təcrübəsinə malik olmalıdır.

Qeyd: nazirliklərdə və digər müvafiq qurumlarda çalışan namizədlər xüsusi olaraq nəzərə alınacaqdır. Proqram üçün aşağıdakı sənədlər tələb olunur:

ərizə forması (ərizə formasını **www.kdischool.ac.kr** internet səhifəsindən əldə edə bilərsiniz);

əsaslandırma məktubu (yuxarıda qeyd olunan internet səhifəsindən yükləyə bilərsiniz);

diplom və onun əlavəsi (ingilis dilinə tərcümə və notarial qaydada təsdiq edilmiş formada);

iki ədəd tövsiyə məktubu; iki ədəd fotoşəkil; ingilis dili biliklərini təsdiq edən sertifikat (əgər varsa);

iş haqqında arayış (əgər varsa).

Elan edilmiş təqaüd proqramı üçün seçilmiş na-

mizədlərin təhsil xərcləri ödəniləcək, tələbələrə həmçinin yaşayış və yemək xərclərini ödəmək məqsədi ilə maliyyə dəstəyi göstəriləcəkdir.

Proqramda iştirak etmək arzusunda olan şəxslər sənədlərini cari ilin 20 noyabr tarixinə qədər aşağıdakı ünvana göndərə bilərlər:

e-mail: admissions@kdischool.ac.kr
Tel: 822-3299-1281;
Faks: 822-3299-1223
İnternet ünvanı: www.kdischool.ac.kr

Ünvan: Admissions Office, KDI School of Public
Policy and Management 87 Hoegiro,
Dongdaemun-gu, Seul 130-868, South Korea.

Əlavə məlumat əldə etmək istəyənlər Peşə İnkişaf Mərkəzinə müraciət edə bilərlər.

Günel MUSTAFAYEVA,
Peşə İnkişaf Mərkəzinin əməkdaşı

SÜLEYMAN DƏMİRƏL UNİVERSİTƏSİNDƏ SİMPOZİUM

Xəzər Universitəsinin rektoru, professor Hamlet İsaxanlı oktyabrın 21-25-də Türkiyənin İsparta şəhərindəki Süleyman Dəmirəl Universitəsində keçirilən memarlıq və mühəndislik üzrə simpoziumda iştirak etmişdir. Simpoziumun ilk açılış məruzəsi professor Hamlet İsaxanlıya həvalə olundu.O, "Keçid dövründə olan ölkələrdə ali təhsilin problemləri" mövzusunda çıxış etmişdir. Digər üç açılış məruzəsini Türkiyə müdafiə (savunma) sənayesi üzrə Muharrem Dörtkaslı və İsmail Tohumçu, həmçinin Kosova ətraf mühit naziri Mahir Yağcılar etdi.

Hamlet İsaxanlı Süleyman Dəmirəl Universitəsinin riyaziyyat və ingilis dili departamentlərinin, mühəndislik fakültəsinin işi ilə tanış olmuşdur.

Simpozium iştirakçıları Antalya və İspartanın görməli yerləri ilə tanış olmuşlar.

"KRİZİS TELEFON XƏTTİ"

Oktyabrın 22-də Xəzər Universitəsində Peşə İnkişaf Mərkəzinin təşkilatçılığı ilə "İnkişaf Naminə Təşəbbüs " İctimai Birliyinin, Gənclər və İdman Nazirliyinin həyata keçirdiyi "Krizis telefon xətti " (510 66 36) adlı layihə ilə bağlı tədbir keçirildi. Layihənin koordinatoru Qumru Həsənova tələbələri layihədə könüllü qismində iştirak etməyə dəvət etdi. O bildirdi ki, "Krizis telefon xətti" Gənclər və İdman Nazirliyi tərəfindən dəstəklənən və "İnkişaf naminə təşəbbüs" İctimai Birliyi tərəfindən həyata keçirilən layihədir. Hazırda gənclərə əyani dəstək göstərilməsi üçün "Krizis telefon xətti" 6 dövlət və 4 qeyri-hökumət xidməti ilə əlaqə yaratmışdır.

Telefon xəttinin əsas məqsədi – 14-25 yaşda olan və krizis vəziyyətinə düşmüş yeniyetmə və gənclərə ilkin psixososial yardım göstərməkdir. Krizis vəziyyətinə düşməyin səbəbləri müxtəlifdir – gəncə qarşı zorakılıq, yaxın adamın itirilməsi, alkoqola, narkotiklərə qurşanma, ağır, sağalmaz xəstəlik haqqında diaqnoz, sevdiyi adamla ayrılıq, münasibətlərin kəsilməsi, ailədaxili konfliktlər, valideynlərlə konflikt və s. Krizisə vaxtında müdaxilənin edilməməsi gənc tərəfindən qeyri-adekvat addımların atılmasına – məsələn, başqalarına və ya özünə qəsd, psixoaktiv maddələrdən istifadə və s.-yə səbəb ola bilər. Xəttə yalnız yeniyetmə və gənclərdən deyil, eyni zamanda valideynlərdən, daha yaşlı əhalidən zənglər gözlənilir. Xidmət pulsuz və anonimdir. Xətdə xüsusi treninq keçmiş peşəkar psixoloq və psixiatrlar çalışırlar. Bütün zənglər haqqında məlumat xüsusi hazırlanmış "krizis vəziyyətlərin kodifikatoru"nda əks etdirilir. Bu məlumatlar əsasında vahid və etibarlı məlumat bankını formalaşdırmağa və hazırda gənclərin məhz hansı problemlərlə üzləşdiyini araşdırmağa imkan yaradır.

Layihədə iştirak etmək istəyən tələbələr CV-lərini crisislineaz@yahoo.com elektron ünvanına və ya 510-66-19 nömrəsinə faksla göndərə bilərlər..

Günel MUSTAFAYEVA,
Peşə İnkişaf Mərkəzinin əməkdaşı

ALLAH RƏHMƏT ELƏSİN!

Xəzər Universitəsinin rəhbərliyi və professor-müəllim heyəti, tələbələri universitənin Kitabxana İnformasiya Mərkəzinin direktoru Tatyana Zaytsevaya oğlu, Xəzər Universitəsinin tələbəsi

Maksim Zaytsevin

faciəvi vəfatından kədərləndiklərini bildirir, dərin hüznlə başsağlığı verirlər. Allah rəhmət eləsin!

XƏZƏR UNİVERSİTƏSİ VƏ Bİ NORVEÇ MENECMENT İNSTİTUTU ARASINDA ƏMƏKDAŞLIQ PROQRAMI ÇƏRÇİVƏSİNDƏ SEMİNAR

Oktyabrın 28-də Xəzər Universitəsində Xəzər Universitəsi və Bİ Norveç Menecment İnstitutu əməkdaşlığına həsr olunmuş seminar keçirildi. Seminarda Xəzər Universitəsinin rektoru, professor Hamlet İsaxanlı, Bİ Norveç Menecment İnstitutundan Beynəlxalq Əlaqələr üzrə məsləhətçi Feite van Dijk, professor Oystein Noreng, Norveçin Azərbaycandakı səfiri Jon Ramberg və Xəzər Universitəsinin əməkdaşları iştirak edirdilər.

Xəzər Universitəsinin prorektoru, İqtisadiyyat və menecment fakültəsinin dekanı professor Məhəmməd Nuriyev qonaqları salamladı. Sonra Bİ Norveç Menecment İnstitutunun Beynəlxalq Əlaqələr üzrə məsləhətçisi Feite van Dijk Xəzər Universitəsi və Bİ Norveç Menecment İnstitutu əməkdaşlığının tarixindən danışdı. Professor Məhəmməd Nuriyev əməkdaşlığın davam etdirilməsinin əhəmiyyətindən bəhs etdi.



Bİ Norveç Menecment İnstitutunun məzunu, Xəzər Universitəsinin Beynəlxalq Əlaqələr və Layihələr üzrə rektor assistenti Aygül İsayeva Norveç və məzunu olduğu Bİ Norveç Menecment İnstitutu barədə öz təəssüratlarını bölüşdü. O, 2006-cı ildə Norveçin Xarici İşlər Nazirliyinin xüsusi Qafqaz Proqramı çərçivəsində magistratura pilləsində təhsilini davam etdirmək üçün təqaüdə layiq görülmüşdü. 2008-ci ildə magistraturanı bitirib, Xəzər Universitəsində fəaliyyətə başlamışdır. Kompüter elmləri departamentinin müdiri Dr. Leyla Muradxanlı İqtisadiyyat və menecment fakültəsinin nəzdində yeni açılmış enerji menecment üzrə ixtisaslaşma proqramında kursları tədris edəcəyini və Bİ Norveç Menecment İnstitutu ilə birgə elmi-tədqiqat işləri aparılacağını qeyd etdi. Dr.Leyla Muradxanlı 2008-2009-cu illərdə Bİ Norveç Menecment İnstitutunda enerji menecment üzrə maqistr proqramını müvəffəqiyyətlə bitirmiş və diplom almışdır. O, bu ixtisas üzrə maqistr proqramı haqqında məlumat verdi və onun əhəmiyyətindən danışdı. Bu proqramın Bİ Norveç Menecment İnstitutu və Fransanın ESCP-EAP və IFP kimi məşhur biznes məktəblərinin birgə proqramı olduğunu qeyd etdi.

Norveçin Azərbaycandakı səfiri Jon Ramberg iki təhsil ocağının əməkdaşlığının əhəmiyyətindən və perspektivlərindən danışdı. Səfir, eyni zamanda, nəinki azərbaycanlı tələbələrin Norveçdə, həm də norveçli tələbələrin gələcəkdə Xəzər Universitəsində təhsil almalarının əhəmiyyətini xüsusi vurğuladı. Professor Oystein Noreng Azərbaycan və Norveçin oxşar cəhətlərindən və əməkdaşlığın davam etdirilməsi üçün gözəl imkanların olmasından bəhs etdi. Xəzər Universitəsinin nəzdində fəaliyyət göstərən Enerji Tədqiqatları Mərkəzinin direktoru İnqilab Əhmədov birgə layihələrin həyata keçirilməsindən, birgə tədqiqat işlərinin aparılmasının əhəmiyyətindən danışdı.

Sonda rektor Hamlet İsaxanlı səfir Jon Rambergə Xəzər Universitəsinə hər zaman dəstək olduğuna görə öz təşəkkürünü bildirdi. Bİ Norveç Menecment İnstitutu ilə əməkdaşlığın gələcəkdə daha fəal davam etdiriləcəyindən, yeni təhsil proqramlarından, universitet-sənaye əlaqələrindən danışdı. Eyni zamanda, əməkdaşlığın yalnız magistratura proqramları üzrə deyil, Ph.D proqramları üzrə də, birgə tədqiqatların aparılması üzrə də davam edəcəyini qeyd etdi.

UNİVERSİTƏYƏ MƏKTUB

"I AM PLANNING TO COME BACK..."

Dear Dr. Isakhanli!

It's been a great pleasure meeting you in person and seeing an amazing achievement of your personal dedication to the cause of education – Khazar University!

By all means, you have a vision on how to instill leadership and promote best educational practices for the benefit of the future generation of Azerbaijani leaders.

I was very impressed with the university's facilities: bright and spacious classrooms, great library and informational center, as well as student's restaurant (I wouldn't dare to call it a "canteen", as it is so much more!). Moreover, I noticed that you have an incredible team of people who believe in education and do their best to make your university one of the best in the world!

I also want to thank your colleagues, Ms. Sotova and Ms. Zaytceva for accompanying us during the visit. We learned a lot about the Khazar University student's life and latest development plans. We sincerely hope that we can begin our cooperation to bring the first Azeri students for professional internships in Washington, DC. And I am sure that in this endeavor your University will be a pioneer as well.

Finally, I would like to thank you again for your wonderful present – a book of your poems which I cherished during my flight back to Washington.

In fact, you inspired me to dedicate a poem to Baku, a wonderful city with an enormous drive and incredible energy, where history and future cross paths in the Caspian waters, and people have warm hearts. Of course, I am not Sergey Esenin, but I thought of my poem when I saw his words "Farewell Baku!" on the wall of the museum and thought that unlike Sergey Esenin, I am planning to come back...

ДО СВИДАНЬЯ, БАКУ!

До свиданья, Баку! Я с тобой не прощаюсь.
В сердце - мистика чувств и мозаика слов,
Теплый ветер и солнце в душе отражаясь,
Словно Каспия дух запустили мне в кровь.

Я забылся и будто услышал внезапно
Шепот тайны зовущей в далекую высь,
Шелестела листва - возвращайся обратно,
И гранат говорил - непременно вернись.

Я бродил как дервиш по садам где когда-то
Серебристою песнью звучала душа.
Золотого поэта страдавшего тяжко
От разлук и потерь и хмельного вина.

Я взлетел над землей, расправляя надежду,
Открывая на миг белоснежность мечты,
Крылья радости бились, срывая одежду
Над потоком совсем неземной тишины.

И я слушал тебя, город с пламенным пульсом,
Где у моря ракушки смешной детворой
Заливаются смехом под волнами грусти,
Город страстный - я молча следил за тобой.

Что сказать? Я стою пред закатною тайной,
Когда солнце стремительно катится вниз.
И с волною морскою корабль желаний
Открывается в вечность, рождается в жизнь.

До свиданья, Баку - сладкозвучная сказка,
Джазом мартовской песни ты тронул меня
Твои люди - вот тайны бакинской разгадка,
И я скоро вернусь, чтобы снова увидеть тебя.

Best regards,

Andrey N. Gidaspov, Ph.D.
U.S.-China and Global Scholars Program Manager
The Washington Center

GÖZƏLLİK, ZƏRİFLİK, MÖCÜZƏ VƏ QAYĞILARIN BİR-BİRİNƏ QOVUŞDUĞU ÖLKƏDƏ - YAPONİYADA

Xəzər Universitəsinin rektoru Hamlet İsaxanlı ilə Yaponiya səfəri haqqında müsahibə "525-ci qəzet"də müəyyən ixtisarla dərc olunmuşdur. Müsahibənin tam mətnini təqdim edirik.



- Hamlet müəllim, Yaponiyadan Azərbaycana hansı hisslərlə, hansı təəssüratla qayıtdınız? Səfəriniz necə keçdi?

-Yaponiya dünyanın ikinci böyük iqtisadi gücüdür, elmin, texnologiyanın, sənayenin ən yüksək səviyyədə olduğu bir ölkədir. Gözəl və fərqli bir mədəniyyətə sahib xalqdır Yapon xalqı. Bunları hamı bilir. Yapon mədəniyyəti haqqında təsəvvürü olan, Yapon elm-təhsil ocaqları və fondları ilə müəyyən tanışlığı olan bir insan kimi mən Yaponiyaya tədqiqat, mühüm görüşlər, həmçinin ölkə ilə birbaşa ünsiyyət üçün gedirdim. Dünyanı pis gəzməmişəm, o tərəflərdə - Çində, Cənubi Koreyada, Malayziyada olmuşam, lakin Yaponiyaya ilk dəfə gedirdim. Səfərim yaxşı hazırlanmışdı. Yaponiyada siyasi elmlər üzrə yüksək təhsil alan, hal-hazırda orada yaşayan Dr. Rəhman Şahhüseynli və onun elmi rəhbəri olmuş şərqşünas-İranşünas Prof. Hisaye Nakanishi (Nagoya Universitəsi, Beynəlxalq inkişaf yüksək məktəbi) əvvəlcədən 12 günlük (2009-cu il, 8-19 mart) proqram - Yaponiyanın müxtəlif şəhərlərində yerləşən 5 universitə və iki yüksək dərəcəli institut ilə görüşümü planlamış, dəqiq vaxt və marşrutları müəyyən etmişdilər.

Azərbaycan səfirliyindən Gündüz Ismayılzadə məni Tokyoda Narita hava limanında təyyarənin qapısında qarşıladı, Tokyonun mərkəzində - Shinjukuda yerləşən Prince otelinə gətirdi (nəhəng Şincuku qatar stansiyası burdadır). Burada isə uzun illərdir Yaponiyada yaşayan ixtiraçı mühəndis-elektronik Dr. Xəlil Kələntər məni gözləyirdi. Yaponiya kimi inkişaf etmiş, amma uzaq ölkədə yazıb-yaradan, təhsil alan və ya iş dünyasında uğur qazanan azərbaycanlıları görmək çox xoşdur, bu hissi hələ Sovet zamanında Qərb dünyasında yaşamışam.

- "Yaponiya" deyəndə ilk əvvəl nə yada düşür?

- Adamın dünyagörüşündən və Yaponiyanı bilmə dərəcəsindən asılıdır "Yaponiya" deyəndə ağla ilk gələn kəlmələr. Yaponiyanı təmsil edən geniş yayılmış söz və ifadələri yada salmağa çalışacam:

Samuray, qeyşa, kimano, kamikadze, harakiri, Zen (Buddizm), Fuci dağı, Tokyo, Hiroşima, Naqasaki... Daha sonra karate, judo, Yen, sakura, ikebana, suşi... əlbəttə ki, Toyota, Nissan, Hondo, Sony, Canon, Toshiba, Panasonic, Hitachi, Mitsubishi,...

Bunlar Yaponiyadan kənarda olanların, orada yaşamayanların eşitdiyi kəlmələrdəndir. Məsələn, Kyoto Yapon tarixi və mədəniyyətində çox böyük yer tutsa da, Yaponiyanı görməyənlər ikinci dünya müharibəsinin qurbanı olan Hiroşima və Naqasakinin adını daha çox eşidiblər...

- Doğrudan da, bu kəlmələr tanışdır və Yaponiya assosiasiyası verir. Hərçənd ki, bu sözlərin hamısının Azərbaycanda həmişə tam düzgün anlaşıldığı sual altındadır. Elə deyilmi?

- Şübhəsiz. Samuraylar döyüşçü, zalım, bic insanlar kimi tanınırlar, lakin onlar həm də savadlı, oxuyub-yazan, rəssam idilər... "Harakiri" kəlməsi əvəzinə yaponlar daha çox "seppuku" sözünü işlədirlər. Qeyşa kəlməsi iki heroqlifdən ibarətdir: qey=istedadlı, şa = adam. Qeyşalar da xüsusi təlim keçmiş savadlı aktyor xanımlar idilər. Hərçənd ki, şəhvət hədəfi də olurdular. Kamikadze barədə xüsusi söhbət açmaq olar. Sakura albalı ağacıdır, cəhrayı rəngli çiçəkləri gözəlliyin, zərifliyin, yapon mənzərəsinin əsas ünsürüdür. İkebana çiçək və budaqlardan kasa-güldan içində hörülən, yapılan sənət əsəridir, insanların öyrənməli olduğu incəsənət növüdür, gözəllikdir. Yaponiyada ikebana kasıb insanın belə özünü zəngin hiss etməsinə kömək edir, deyirlər. Yəqin ki, Azərbaycanda çay dəsgahı insanlar arasındakı sərhədləri gözəgörünməz etdiyi kimi... Məşhur Yapon şirkətlərinə gəldikdə isə onların siyahısını artırmaq olardı...

Burada bəlkə yerinə düşər: "Ya-pon" sözü Çin (Cənubi Çin) tələffüzü Ji-ben kimi Avropaya keçib. Yaponlar özlərinə Nippon və ya Nihon deyirlər, mənası "Günəşin kökü", "Günəşin doğduğu yer" deməkdir.

- Yapon coğrafiyası, Yaponiyanın əhalisi haq

qında nə deyə bilərsiniz?

- Yeni nə deyə bilərik ki?! Sadəcə, bəzi faktları yada salmaq pis olmazdı yəqin ki...

Yaponiya adalar ölkəsidir. Sahəsi 372,1 min kvadrat kilometrdir. Mərkəzi ən böyük ada Honşu adlanır, sahəsi 230,8 km²-dir, yəni Yapon ərazisinin təxminən 70 %-idir). Ərazinin 80%-i və ya daha çoxu dağlardır. Kənd təsərrüfatına yararlı sahə 13 faizdən azdır. Digər 3 böyük Yapon adaları-Hokkaydo, Şikoku və Kyuşi adlanırlar. Okinava adaları cənubdadır. 3900 –dən artıq kiçik adalar var.

Yaponiya uzaqdan, yəni xəritədə nisbətən kiçik görünür, lakin onun uzunluğu (şimal-qərbdən cənub-şərqə doğru) təxminən Həştərxan-Küveyt (Fars körfəzi) xətti kimidir.

Yaponiyanın əhalisinin böyük qismi Tokyo, Yokohama, Osaka, Nagoya, Krobe, Kyoto, Hiroşima kimi şəhərlərin yerləşdiyi böyük adada-Honşuda yaşayır, bu ada həmçinin Yaponiyanın əsas sənaye məkanıdır. Digər iki böyük adanın əsas şəhərləri Sapporo və Fukuokadır...

Əhalisinə görə Yaponiya dünya 10-cusudur (təqribən 127 milyon), artım, demək olar ki, dayanıb.

Yaponiya dünyanın ən monoetnik ölkələrindən biridir, böyük ölkələr arasında bu mənada birincidir. Ölkə əhalisinin 99 faizinə yaxınını yaponlar təşkil edir.

Orta insan ömrünün uzunluğuna görə də Yaponiya dünyada birincidir demək olar (kiçik Andorranı nəzərə almasaq), orta ömür rəqəmi 82.07-dir, kişilərdə - 78.73, qadınlarda - 85.59 yaşdır.

Xəritədən istifadəyə görə dünyada birincidirlər, hansı bir yerə daxil olsan, getmək istədiyin yer haqqında soruşsan, həmin dəqiqə bir xəritə çıxarıb diqqətlə sənə izah edəcəklər....

- Coğrafiyadan sonra tarix yada düşür. Yapon möcüzəsi deyilən şeyin Yapon tarixi ilə, Yapon xalqının tarixi inkişafı ilə əlaqəsi varmı, yoxsa bu şıçrayış sadəcə təsadüflərin bir-birinə çulğaşmasının meydana çıxardığı yeni bir fenomendirmi?

- Bu işdə mənə çox ümid bəsləməyin, sual sadə deyil, çoxşaxəlidir və ətraflı təhlil tələb edir, üstəlik mən Yapon tarixi üzrə mütəxəssis deyiləm.

Yapon tarixinin yalnız əsas dönüş nöqtələrinə qısa nəzər sala bilərik (nə qədər qısa olacaq–baxaq görək). Qədim və orta əsrlərdən başlayaq.

Xalqın tarixinin nə vaxtdan və nədən, haradan başlaması həmişə sual və mübahisələr doğurur. Qədim Yapon tarixinin ən mühüm dövlətləşmə dövrü 7-ci əsrə təsadüf edir.

604-cü ildə Prins Şotoku 17 maddəli konstitusiya hazırladı. 7-ci əsrdə Yaponiyada Çin təqvimi, Çin idarəetmə üsulları tətbiq edildi, Çinsayağı vergi sistemi quruldu - evbaşı vergi alınmağa başlanıldı. Yaponiyada Çin dili get-gedə Avropada latın dilinin oynadığı rola bənzər güc qazandı.

710-cu ildə İmperator sarayı Nara şəhərində yerləşdi. Bu, Buddizmin yayıldığı, incəsənətə güclü təsir etdiyi dövr idi (hərçənd ki, Buddizm fəlsəfi cərəyan kimi mühüm dərəcədə inkişafa nail olmadı). Nara mədəniyyətinin qurucuları koreyalılar idi.

784-dən 794-ə kimi İmperator sarayı Naradan Heian-kyo (mənası - "Sülh paytaxtı", indiki Kyoto) deyilən yerə yerləşdi. 1869-a qədər bu şəhər paytaxt oldu! Kyoto Yaponçuluq mərkəzi, Yapon tarixinin və mədəniyyətinin beşiyi hesab olunur. İlahi güc ilə hərbi və idarəetmə gücü yanaşı fəliyyətdə idi. İmperator rəmzi güc, Şoqun (bu ad 12-ci əsrin sonu yarandı) əsl hərbi güc idi.

1274-də Monqol Kubilay xan Yaponiyanı fəth etməyə cəhd etdi. Otuz minlik Monqol ordusu qələbə çaldı, lakin pis, fırtınalı havaya görə monqollar geri döndülər. 1281-də böyük (tarixçilərə görə 160 minlik) monqol ordusunun gəmilərinin yarısını qəfil qalxan tayfun məhv etdi, qalanları tez geri çəkildi.

Bu "ilahi külək", yəni "kamikadze" zamanından 1945-ə qədər Yaponiya xarici qüvvələrin işğalına uğramadı.

Orta əsrlərdə Şoqun sülalələri dəyişir, vətəndaş savaşları gedir (100 illik 1467-1568 savaşı xüsusi qeyd olunmalıdır), incəsənət isə inkişaf edirdi (bir çox samuraylar bu işin də ustası idilər!).

1543-dən Avropa təmsilçiləri - portəgizlilər gəlməyə başladı. Yaponlar arasında xristianlıq da yayıldı, Naqasaki şəhəri mərkəz olmaqla xristianlığı qəbul edənlərin sayı 1615-də yarım milyona çatdı. Lakin 1587-dən xristianların təqibi başlanıldı (portəgizlərin agenti hesab edilərək).

- Maraqlıdır, bəs Avropa ilə bu təmaslar Yaponiyaya nə gətirdi, onun inkişafına necə təsir etdi?

- 1603-də Tokuqava şoqun rütbəsini qazandı. Şoqun idarəsi Edo (indiki Tokyo) şəhərinə köçürüldü (Tokuqava rəqiblərini aradan çıxarmaq arzusu ilə Edoda hakimiyyət pusqusunda dayanıb gözləmişdi...).

Avropalıların təqibi 1612-də artdı. 1635-də xaricə getmək istəyənlərə ölüm cəzası elan olundu! Yapon tarixinin üç əsrdən çox davam edən təcridolunma dövrü başlanıldı. Bu təcridolunma texnoloji gerilyə gətirdi. Amma (bir çoxlarının fikrincə) milli kimliyi, milli mədəniyyəti və incəsənəti gücləndirdi.

Qapalılıq, yəqin ki, Yaponiya əhalisinin artmasını da şərtləndirən amillərdən biri oldu, 18-ci əsrdə 30 milyon ətrafında yapon əhalisinin təxminən bir milyonu Edoda yaşayırdı (Avropada şəhərlər müqayisədə çox kiçik idilər).

Bu dövr cəngavərliyin, şərəf və sadiqliyin, "Busido" (döyüşçü yolu) adlı əxlaq kodeksinin Yapon düşüncə və həyat tərzində hökm sürdüyü dövr idi.

Yapon tarixi və mədəniyyətində silinməz iz buraxmış bir əhvalatı, hadisəni yada salmaq istəyirəm. 1700-cü ildə Tokuqava sarayında Knyaz Asano aşağı-

lanmaqla özündən çıxıb yüksək rütbəli şəxsə hücum etməyə və nəticə olaraq ölümə təhrik edildi. Düşməndən intiqam almaq Knyazın 47 nəfərlik dəstəsinin - keçmiş samurayların (başçıları ölüb samuraylıq bitəndə "ronin"lər adı ilə yaşayanların) şərəf məsələsinə çevrildi. Bütün maneələri aşaraq, ağıl, cəsarət və biclik işlədərək 1703-də düşməni öldürüb intiqam aldılar. Onların bu sədaqəti ümumilikdə təqdir olunsa da, onlar ölümə məhkum edildilər. Yapon milli qəhrəmanlarına çevrilən bu insanlar barədə Dziro Osaraqinin məşhur əsəri var -"Akolu roninlər".

- Yapon tarixinə səyahət etdik. Sonra nələr baş verdi? Bu təcrid olunma dövrü necə bitdi?

Tokuqavanın mütləq nəzarətə əsaslanan hakimiyyətindən yorulanlar, iqtisadi vəziyyətin ağırlaşmasından narazı qalanlar, o cümlədən samuraylar yavaş-yavaş imperatoru dəstəkləmək fikrinə gəlirdilər...

Digər tərəfdən isə Amerika və avropalılar Yaponiyanın açılmasında maraqlı idilər.

1853-54-cü illərdə amerikalılar öz savaş gəmilərinin gücü ilə yaponları ölkəni açmağa (liman şəhərlərini açmağa), ticarətə başlamağa məcbur etdilər. Yaponiyanın Avropa və Amerikanın elmi-texniki tərəqqisindən çox geri qaldığı məlum oldu.

1858-də Tokuqava sülaləsinə qarşı çıxanlar imperator hakimiyyətini bərpa etməyə girişdilər. Edo-nun adı dəyişdirildi - Tokyo (Şərqi mərkəz) oldu. Meici (maarifçi qaydalar) bərpası və ya yenidənqurması, restavrasiyası adlandırılan bu dövr imperatorun şəxsi hökmranlığının bərpası deyildi, müasir hakimiyyət idarəçiliyinin-hakimiyyət bürokratiyasının qurulması idi. Ölkədə 45 prefektura yaradıldı, samuray imtiyazları ləğv edildi.

19-cu əsrin ikinci yarısında Yapon cəmiyyətini Qərb elmini öyrənmək həvəsi bürüdü; "Qərb elmi və Şərq mənəviyyatı" – bu həyat düsturu yapon intellektuallarının arzusuna çevrildi. Yaponiya acgözlüklə öyrənməyə başladı. Və bənzətmə yolu ilə yaratmağa başladı. Sənaye, texnologiya, idarəetmə və mədəniyyət qərbləşmə yoluna çıxdı. Onu da deyim ki, Yaponiya əhalisinin savadlılıq dərəcəsinə görə ən qabaqcıl ölkələrdən idi, bu çox mühüm amil də öz sözünü deyirdi...

- Və qərbləşmə, müasirləşmə öz nəticəsini verdi, gələcək güclü Yaponiyanın təməli atıldı?!

- Yaponiya gücləndi və... hərbi sahədə gücünü qonşularına yönəltdi. 1894-də Koreya və Mançuriya bazarlarına nəzarət üçün Çin ilə savaşa girdi və savaşı uddu. Rusiya ilə müharibədə (1904-5) qalib gəlməsi ilə Yaponiya böyük güc olmasını dünyaya bəyan etdi. 1910-da Koreyanı və Mançuriyanın cənubunu istila etdi. 1930-cu illərdə milliyyətçilik və işğalçılıq ideyaları gücləndi, Mançuriya tam tutuldu, Çinin bəzi şəhərləri də işğal olundu. Cənub-şərqi Asiyanı nəzarət altına almaq uğrunda savaş da ilk zamanlarda Yaponiya üçün uğurlu idi. Lakin bu uzun sürmədi, 1944-də ABŞ aviasiyası Yapon şəhərlərini kütləvi surətdə bombalamağa başladı.

Hökumət təslim olmaq istəmirdi. 1945-də uduzmaqda olan yaponların özünü ölümə atmaqla düşməni taran edən gənc pilotları - kamikadzelər də tarixin gedişini döndərə bilmədilər. 6 Avqust 1945-də Hiroşima, 9 avqust Naqasaki şəhərlərinə atom bombası atıldı (Harry Trumanın prezidentliyi zamanı). Sovetlər də Mançuriyaya daxil oldular.

14 avqust 1945-ci il Yaponiya qeyd-şərtsiz təslim oldu. Ölən və yaralananların sayı 8 milyonu aşmışdı, 90 şəhər bombardman nəticəsində dağıdılmışdı...

- Dediklərinizi belə ifadə edə bilərik: əzələ nümayiş etdirməklə Yaponiya sanki təbii inkişaf yolundan kənara çıxdı və bu ona baha başa gəldi... Amma Yaponiya dirçəldi və yenidən gücləndi. Bu necə baş verdi?

- 50-ci illər sənayeləşmə illəri idi, kimya və ağır sənayeyə, elektronikaya üstünlük verildi. 1960-cı ildə Yaponiya gəmiqayırma üzrə dünya birincisi oldu!

Doğrudan da, Yaponuyanın 2-ci dünya savaşından sonra güclənməsi, dünyanın ikinci böyük iqtisadiyyatına çevrilməsi, "Yapon möcüzəsi" nə ilə izah oluna bilər?

Elm, təhsil və texnologiyanın düzgün inkişafı ilə! Sənayeləşmənin bu əsasda qurulması ilə! Koreya savaşında amerikalıların sifarişini yerinə yetirmək də yaponların işinə yaradı –sərmayə qoyuluşu sənayeləşməni gücləndirdi...

Demokratiyanın inkişafı ilə! Hökumətin ali təhsilə, o cümlədən özəl universitetlərə yardımçı münasibəti ilə! (ali məktəblərin təqribən dörddə üçü özəldir). Hökumətin şirkətlərə yönələn həvəsləndirici siyasəti - vergi, borc, sərmayə qoyuluşuna kömək siyasəti ilə! Qərbdən ixtira və patentlərin satın alınması, yeni texnologiyaların sürətlə və yaradıcı surətdə mənimsənilməsi yolu ilə! Birləşmiş Ştatlarla çox sıx siyasi-iqtisadi əməkdaşlıq etməklə! Demilitarizə nəticəsində hərbiyə az pul sərf etməklə (1%-dən az)! 1968-ci ildə Yaponiya dünyanın ikinci böyük iqtisadiyyatına çevrildi! Çin ilə siyasi, xüsusilə də iqtisadi münasibətlərin mühüm dərəcədə inkişaf etdirilməsi də Yaponiyanın güclənməsində rol oynayır.

- Ölkənin güclü inkişafında təhsilin rolunu qeyd etdiniz. Ümumiyyətlə, Yaponiya təhsil sistemi barədə nə deyə bilərsiniz?

18-ci əsrin sonu və 19-cu əsrin əvvəllərində savadlılıq dərəcəsinin 40% olduğu məlumdur (o dövr üçün çox böyük rəqəmdir). 1872-də yeni məktəb təhsili haqqında hökumət qərarını 1879-da ibtidai təhsilin icbariliyi haqqında qərar təqib etdi. 1907-də 6 illik məktəb təhsili icbari oldu, artıq o vaxt 97, 4%-i əhatə edirdi. 1947-də bugünkü məktəb və ilkin ali təhsil sisteminə keçildi – "6-3-3-4" (yəni 12 illik ibtidai-orta məktəb və 4 illik ilkin ali təhsil – buna amerikansayağı

demək olar).

200 ilə yaxındır ki, yaponlar elliklə olmasa da, ən savadlı millətlər arasındadır. Bunu, zənnimcə, "Yapon möcüzəsi"ni şərtləndirən səbəblərdən biri kimi qeyd etmək lazımdır. Hal-hazırda ali təhsilin əlçatan olmasına görə də Yaponiya lider ölkələrdəndir.

Yaponiyada ümumi təhsil və savadlılıq məsələsi bəzi xüsusiyyətlərə malikdir. Savadlı adamın mütləq kalliqrafiyanı və poeziyanı bildiyi, onlardan baş çıxardığını söyləyirlər. Deyilənə görə, 2-ci sinif şagirdləri 36 rəngdən istifadə edir və onların adlarını bilir...

- Söhbətə başlayanda samurayların da oxuyub-yazan olduğunu, hətta rəssamlıq etdiklərini yada saldınız... Yapon yazı sistemi və onun çətinliyi barədə nə deyə bilərsiniz?

- Yapon yazı sistemi Çindən götürülmüş heroqliflərlə başlayıb. Yapon mədəniyyətinin, qədim dövlətçiliyinin təşəkkülündə Çinin rolu çox yüksəkdir. Yapon dilində Çin mənşəli sözlərin təxminən 50% olduğu deyilir. Çin dilində oxumaq, yazmaq və danışmaq, Çin mədəniyyətini mənimsəmək və onun daşıyıcısı olmaq orta əsrlərdə Yapon kübarlığının əsas əlamətlərindən olub. Bu, birbaşa samuraylara da aiddir. Tokuqava zamanında (1600-1868) samuraylarda bilik, savad ehtirası böyük idi. Onlar Çincə öyrənir, Çin filosoflarını öyrənirdilər (!). Ümumiyyətlə, samuraylar milli ləyaqət hissinin daşıyıcıları idilər və 19-cu əsr texniki tərəqqi zamanı öz enerjilərini yeni dövrə tətbiq edərək siyasətçi və liderlər sırasına daxil oldular. Yapon yaradıcı enerjisinin yenidən müasir biçimdə açılmasında onların rolu böyük idi.

Çağdaş Yapon yazı sistemi Çin heroqlifləri ilə (**kanji**) yanaşı fonetik xarakter daşıyan iki yazı-**hirakana** və **katakana** (ümumi **kana**) üzərində qurulur. Yapon dilində əsas hecaları ifadə etmək üçün düşünülmüş hirakana yazı sisteminin əsasları, səhv etmirəmsə, 9-cu əsrdə yaradıldı. 1946-dan başlayaraq əsas heroqliflərin sayını azaltmağa çalışdılar, 1979-da bu say 1926 idi. Saydan əlavə işi çətinləşdirən heroqliflərin mənaca müxtəlif çalarlı olmasıdır.

Bunu da yəqin bilirsiniz ki, Yapon dilinin sintaktik olaraq Altay dillərinə yaxınlığı mütəxəssislər tərəfindən qəbul olunub.

- Yuxarıda Yapon tarixi barədə xülasənizdə Buddizmə toxundunuz. Yaponiyada din və onun rolu haqqında bir neçə söz...

- Bu sahədə biliklərim dərin deyil... Yaponiyada Sinto ("Allahların yolu") və Buddizm əsas dinlərdir. Xalis Yapon dini olan Sintoya görə təbiətdə hər şey canlıdır, müqəddəsdir. Təbiətə minnətdarlıq xasdır Sintoya. Fuci dağı milli rəmzdir, təbiətin ilahiləşdirilməsidir. Məişətdə təmizlik zəruridir.

Xristianlıq, Buddizm və İslamdakı günahlara görə xəbərdarlıq, ciddi əxlaq çərçivələri və cəza qorxusu Sintoda yoxdur. Sinto dindən çox həyat tərzidir. Qədim həyat tərzinə sadiqlikdir. Təkallahlılıq Yaponiyada anlaşılmır (xristian və müsəlmanları çıxmaqla).

Çin və Koreya yolu ilə Yaponiyaya daxil olan Buddizm isə dünyanın keçici, fani olduğunu söyləyir. Yaponiya təhsilinin, ədəbiyyat və incəsənətinin inkişafında Buddizm mühüm rol oynayıb. Zen-Buddist təriqəti xüsusi qeyd olunmalıdır (Çində Buddizm ilə Taoizmin sintezindən doğan Çan Buddizm Yaponiyada Zen-Buddizm şəklini aldı və bir neçə məktəbə bölündü.) Yaponiyada sadə Sinto ilə mürəkkəb Buddizm yan-yanaşıdır, insanların çoxu hər ikisini qəbul edir (!?). Fərəhli iş, hadisə Sinto ilə, qəmli olanlar isə Buddizm qaydaları ilə müşaiət olunur. Ümumiyyətlə, Yapon buddizmi Hind və Çin buddizmindən həmişə fərqlənib.

17-19-cu əsrin ortalarına qədər Yapon cəmiyyətində Konfusiçilik də mühüm olub, "sadiqlik mənəviyyatın əsasıdır" düşüncəsinin kök salmasında, görünür ki, bunun rolu olub. Yuxarıda dediyimiz kimi, orta əsrlərdə yüksək cəmiyyətin dili Çin dili olub, bu dil rəsmi yazışma və ədəbiyyat dili olub. Ümumiyyətlə yaponlar (eləcə də çinlilər) çox dindar deyillər, dinə qarşı biganə kimidirlər. Sino-yaponoloqlar dinin yerində Yaponiyada sanki estetikanın, Çində isə etikanın durduğunu iddia edirlər. Sanki yaponlar təbiəti, çinlilər insanın yaratdığını ön planda görürlər. Əlbəttə ki, bu fikirlərin bir əsası ola bilər, lakin, digər tərəfdən onlar qəti surətdə mütləqləşdirilə bilməz...

- Lütfən, Yapon mədəniyyəti, Yapon həyat və düşüncə tərzi barədə fikrinizi bizimlə bölüşün.

- Ayrı-ayrı xalqların, millətlərin xasiyyəti, düşüncə tərzi, psixologiyası, təbiətin, ətraf mühitin xalqın düşüncə sisteminə təsiri kimi məsələlər haqqında qədimdən bəri böyük filosoflar, tarixçilər və digər sənət sahibləri müşahidələr aparmış, müxtəlif fikirlər irəli sürmüşlər. 19-cu əsrdə Avropada bu məsələləri içinə alan bir elm sahəsi – etnopsixologiya yaratmaq cəhdləri genişləndi. Lakin zaman göstərdi ki, bu cəhdlər yeni ciddi bir elmə gətirib çıxarmadı. Üstəlik indiki qlobal dünyada, məsafələrin kiçildiyi, üz-üzə ünsiyyətin və media vasitəsilə xəbərləşmənin fantastik dərəcədə artdığı bir dövrdə xalqları ancaq onlara xas olan əlamətlərə görə səciyyələndirmək, onları birbirindən mühüm dərəcədə fərqləndirmək ağla batmır.

Amma... Eyni zamanda, bütün xalqlara xas olan və tarixi inkişafdan gələn təsirlərə və dəyişmələrə məruz qalsa da, özünü müəyyən dərəcədə büruzə verən özəlliklər, adət və ənənələr, dəyərlər sistemi də mövcuddur...

Yapon cəmiyyətində ierarxiya, böyük-kiçik, hər kəsin öz yerini bilməsi çox mühümdür. Bu ierarxiya ailə içində də mövcuddur. Qadın nə qədər mühüm rol oynasa da, ön plana–görünən hissəyə kişi çıxır (və ya çıxarılır). Kişi sanki hər şeyi bilir, hər şey onun nəzarətindədir. Qadın özünü təvazökar aparır, ailənin uğuru

kişinin uğuru kimi qələmə verilir. Yapon dilində qardaş və bacı sözləri yoxdur, böyük qardaş (ani), kiçik qardaş (ototo), böyük bacı (ane), kiçik bacı (imoto) sözləri var. Valideyn qarşısında borc, minnətdarlıq hissi Yapon cəmiyyətinə xas olan cəhətdir. Bu xüsusiyyətlərə görə Orta Şərq xalqları, o cümlədən azərbaycanlılarla Yaponlar arasında yaxınlıq var.

Yapon mədəniyyətini **ayıb mədəniyyəti** kimi qələmə verənlər var. Bu cəhətdən də biz yaponlara bənzəyirik...

Yapon həyat fəlsəfəsinə görə hər şey dəyişən olduğu üçün mükəmməllik, bitkinlik yoxdur. Gözəllik dərindədir, hər adam onu görə bilmir. Davamlı zirvə yoxdur, bir an, bir parıltı var yalnız... Tamam deyilməmiş olanın məlahəti daş, qum və kiçik agaçlardan ibarət yapon bağı – **yuqen**də özünü göstərir. Zen Buddizmin əsas fəlsəfəsi də təcrübə ilə (yazı ilə deyil) öyrənmək və meditasiyadır. Yapon şeiri **tanka** və **hayku** da belədir. (tanka -5 misradan ibarətdir, hecaları 5-7-5-7-7, hayku isə hecaları 5-7-5 olmaqla 3 misralıdır, lakin bunu pozanlar da olub və var. Bu şeirlər təbiət hadisəsinə işarə ilə əhval-ruhiyyəni verir.

Yaponlarda asimmetriya daha gözəldir, simmetriya bitkinlik əlaməti deyil. Təsviri incəsənətdə boş yerlərin çoxluğu fırçanın çəkdiyindən az mühüm deyil.

Yapon nəzakəti...yeni adamı sehrə salır. Dözüm, başqalarına öz kədərini göstərməmək nəzakətliliyin, yapon özünütərbiyəsinin əsasında dayanır.

Yaponsayağı nəzakətin namus, şərəf hissindən, qismən də olsa təhqirə dözməmək hissi ilə bağlı ehtiyatlılıqdan irəli gəldiyini yazanlar var.. Geniş anlamlı "hai" (hə, bəli, aydındır, anladım, eşidirəm) kəlməsini sonsuz təkrar edən yaponlar "iie" (yox) sözünü birbaşa deməməyə çalışırlar.

Şəhvət, seks Yapon cəmiyyətində heç vaxt Orta Şərq və Avropadakı dərəcədə qınanmayıb, ictimai bəla hesab olunmayıb. Qısqanclıq burada pis davranış kimi qəbul olunub (bu, həmçinin, kişilərin dominantlığına da bir misaldır).

Yapon (və Çin) qonaqpərvərliyi bizimki kimidir, avropalı və amerikalı kimi "yemək istəyirsənmi?" deyə soruşmur onlar, qonağa yemək verirlər...

- Rəsmi görüşlərinizi, səfərinizin işgüzar tərəfini unutduq sanki...

- Tokyoda ilk görüşüm dostum (və bir çox azərbaycanlıların dostu), Yaponiyanın Azərbaycandakı keçmiş fövqəladə və səlahiyyətli səfiri cənab Fujiwara Toshyüoki ilə oldu. Azərbaycanı, Bakını yada saldıq. O, dayana-dayana olsa da Azərbaycan türkcəsində danışdı, nə ingiliscəyə keçmədik, nə də tərcümə məqsədilə Rəhmanın yaponcasından istifadə etmədik. Tokyoda ikinci görüşüm neçə illərdir Xəzər Universitetinin Malayziya və Cənubi Koreya institut və mütəxəssisləri ilə əməkdaşlığını maliyyələşdirən Sasakava Sülh fondunda oldu, tanışım olan prezident səfərdə idi. Regional fondlar şöbəsinin (Office of Regional Funds) direktoru yenə də köhnə tanışım cənab Chan Woo Lee ilə görüşüb söhbət etdik.

Və nəhayət, ingiliscə GRIPS (National Graduate Institute for policy Studies) adlanan, yüksək dərəcələr (magistr və doktor) proqramı ilə yaxşı tanınan, müxtəlif ölkələrdən, o cümlədən Azərbaycandan tələbələri olan və əsasən dövlətin maliyyələşdirdiyi bu institutun prezidenti cənab Tatsuo Hatta ilə görüşüb birgə əməkdaşlıq ideyaları barədə müzakirə apardıq.

Əlbəttə, vaxt qıtlığına baxmayaraq, dünyanın ən böyük şəhərlərindən biri olan Tokyo ilə də qismən tanış olmağa çalışdım. Tokyo metropoliteni ofisinin 44-cü mərtəbəsindən bütün istiqamətlərdə Tokyonu seyr etdim. Tokyo imperator sarayının qabağında gəzdim, məşhur iki körpünün (Nijubashi) yanında fikrə daldım. Marunouçi və Qinza kimi mərkəzi və gəzməli yerləri gəzdim,

Gecə işığında Tokyo! New Yorkla bərabər Tokyo dünyanın ən işıqlı şəhəridir (Bu, kosmosdan da belə görünürmüş). Tokyoya iki gündən çox vaxt sərf edə bilməzdim.

Rəhmanla bərabər yüksək sürət qatarı ilə Nagoya şəhərinə yola düşdük.

- Deməli, səfərinizin böyük qismi Tokyodan uzaqda keçdi...

- Bəli. Nagoya Universitəsinin rəsmi dəvəti ilə getmişdim Yaponiyaya. Gedəcəyim başqa şəhər və universitələr də Tokyodan şərqdə, Nagoya-Kyoto-Osaka üçbucağında və Kyuşu adasında idi. Bu üçbucaq Yaponiyanın Tokyo və onun ətrafı ilə yanaşı əsas sənaye və elm-təhsil-mədəniyyət mərkəzidir. İlk öncə Nagoya universitəsi qəyyumlar şurası üzvü, və Beynəlxalq mübadilə və Texnologiya transferi üzrə vitse-prezident Prof., Dr. Takashi Miyata ilə və digər rəsmilər - Beynəlxalq inkişaf yüksək məktəbinin dekanı Prof. Futamura Hisanori, Akasaki İnstitutu Texnologiya transferi şöbəsi Girişimçiliyin (Entrepreheurship) İnkişafı (Promoting) bölümünün direktoru Prof. Akihiko Watanabe və Beynəlxalq inkişaf yüksək məktəbinin professoru xanım Hisaye Nakanishi ilə görüşdüm, qarşılıqlı faydalı əməkdaşlıq məsələlərini müzakirə etdik. Əlbəttə ki, burada və digər universitələrdə məni xüsusi maraqlandıran bir problemi araşdırmağı unuda bilməzdim – universitə ilə sənaye/iş dünyası arasındakı işbirliyinə yönələn, texnoloji transferlə məşğul olan mərkəzlər, "texnoloji park" və ya "elm parkı" deyilən ali məktəblə sənaye/iş dünyasını birləşdirən koridorların fəaliyyəti.

Rəhmanla Nagoyanın şimalındakı Gifu prefekturasında Gero Onsenə getdik. ("Onsen" yer altından qaynayıb üzə çıxan və yaponların və Yaponiyaya gələnlərin sevdiyi isti su qaynaqlarına deyilir; Yaponiya onsenlərlə çox zəngindir). Onsen vurğunu Rəhmanın sayəsində getdiyim hər yerdə Onsen nəşəsini duya bil-

dim.

Nagoya və ətrafı Yapon avtomobil sənayesinin mərkəzidir.

Növbəti rəsmi görüş üçün Osakaya gedib, oradan təyyarə ilə Kyuşu adasına, Fukuoka şəhərinə uçduq. Buradan maşın kirayələyib Ritsumeikan Asia Pacific Universitetinin yerləşdiyi Beppu şəhərinə getdik. Maşını aradabir mən də sürürdüm. Bizdəkindən fərqli olaraq maşınlar sol yollu hərəkətə tabe olduğu üçün uyğunlaşmaq bir neçə dəqiqə vaxt istədi.

Məni Okinava adalarına aparmaq fikrində israr edən Rəhmana vaxt və risk menecmentini əsas tutaraq qəti etiraz etməli oldum.

Beppu-shi şəhəri ətrafındakı yüksəklikdə yerləşən gözəl mənzərəli Ritsumeikan Asia Pacific University`nin kampusunda bizi bu ali məktəbin Prezidenti, həmçinin Ritsumeikan Trust (Qəyyumlar şurası) vitse-presidenti Monte Cassim, Asia Pasifik Araşdırmalar Kollecinin akademik işlər üzrə dekanı Prof. Edgar A. Porter, Planlama və inkişaf üzrə dekan Prof. Yasuo Uchida və digər şəxslərlə görüşüb müzakirə apardıq.

Yaponiya dağlar ölkəsidir. Beppuda Dəniz Cəhənnəmi adlanan dağın döşündən çıxan qaynar su və onun yaratdığı dumanlı gözəlliyi seyr etdim. Dağların bir hissəsi odla nəfəs alır, od püskürür, vulkan məskənidir. Bunlardan biri olan məşhur Aso dağına getdik. Dünyanın ən böyük və aktiv-tüstülənən vulkan çüxuru buradadır (diametri 20 km! - o günlərdə təhlükəli olduğu üçün yaxına getmək qadağan idi). Təbii ki, Rəhmanın təkidi ilə yaxındakı məşhur Ruri Onseni, geo-termal fəallığın yaratdığı daha bir ləzzəti hiss etdik. Mineral isti suların qucağında, başımızın üstündə açıq səma, ətrafda yaşıl dağlar, sərin külək və bəzən də narın yağış – insan təbiətin bir hissəsi olduğunu hiss edir...

Rəhmanın yarıciddi və yarızarafat tənqid etdiyim risk və vaxt menecmentinin axsaması sayəsində təyyarəyə zorla yetişdik. Yenidən Osakaya döndüm.

- Səfərinizin hər cəhətdən, həm iş, həm təəssürat baxımından zəngin olduğu açıq-aydın görünür...

- Mən görüşlərimizin elm və tədrisə aid detalları ilə sizi yormaq istəmirəm, bunların bir qismi mütəxəssislər üçün maraqlı olub, digərlərinə darıxdırıcı görünə bilər. Həm də söhbəti çox uzatmaq da olmur, sizin də, mənim də vaxtımız ölçüsüz deyil...Bunları geniş danışıb təhlil etsək, bir kitaba çevrilərdi.

- Kitab! Niyə də olmasın? Tarix, mədəniyyət, elm, təhsil, insanlar...

- Adam atdığı hər maraqlı addımı, iştirakçısı olduğu hər maraqlı hadisəni, səfəri, təəssüratı kitaba çevirməz ki...buna ömür yetməz. Axı həyatda çox şeyləri görə bilmirik, görməyə qüdrətimiz çatmır və ya başımız qarışıq olur, vaxt ayıra bilmirik.

Günəşin saşını hörə bilmirik
Zalımın dərsini verə bilmirik
Həyatın üzü çox tanış olsa da
İçini dərindən görə bilmirik.

Uzaq ulduzları saya bilmirik
Yaxın sevgiləri duya bilmirik
Həyat çox şirindir, ömür çox qısa
Nə qədər yaşasaq, doya bilmirik...

- Qısaca da olsa, daha nə görüşləriniz oldu, harada, kimlərlə?

- Kyoto şəhərində, Doshisha Universitəsi ilə görüşümüz çox yüksək səviyyədə, tam ciddilik və qonaqpərvərliklə təşkil olunmuşdu. President Eiji Hatta, vitse-prezident Prof. Nobuhiro Tabata, Beynəlxalq Mərkəz şöbəsinin inzibati direktoru Toru Nishioka, Beynəlxalq əməkdaşlığın həyata keçirilməsi təşkilatının dekan müavini, Yapon dili və mədəniyyəti mərkəzinin dekanı Nobuyuki Yamauchi ilə xoş söhbət və geniş müzakirələr apardıq. İki universitə arasında hərtərəfli əməkdaşlıq müqaviləsi imzaladıq.

Yenə də Kyotoda Ritsumeikan Universitəsi ilə görüşdüm. Avropa təhsil sistemi, Bologna Prosesi haqqında onların çoxsaylı suallarına cavab verməyə çalışdım. Qarşılıqlı əlaqələr perspektivi haqqında fikir mübadiləsi etdik.

Yaponiyanın ən məşhur ali məktəblərindən biri olan Osaka Universitəsi ilə görüş də çox maraqlı oldu. Qəyyumlar şurasının üzvü, vitse-prezident Prof. Dr. Kiichiro Tsuji, Beynəlxalq tələbə mərkəzindən Prof.Dr Tomoko Arikawa və dosent (associate prof.) Dr. Koichi Setoyama və digər səlahiyyətli şəxslərlə müzakirəmiz çox faydalı oldu. Osaka universitəsində aparılan elmi-tədqiqat işləri və universitə-sənaye/iş dünyası münasibətləri məni çox maraqlandıran bu məsələlər haqqında geniş məlumat ala bildim.

- Yaponiyanın tarix və mədəniyyətindən söhbət açdınız. Bəs gözünüzlə nə görə bildiniz? Tarixi yerlərə, abidələrə baş çəkməyə vaxt qaldımı?

- Kyoto, Nara şəhərləri və onların ətrafında, Yapon mədəniyyəti və tarixinin bu əsas mərkəzində Professor Nakanişinin və Rəhmanın köməyi və müşaiyəti ilə ən əsas tarixi yerləri və abidələri ziyarət etdim. Kyotonun müstəsnalığını onda da görmək olar ki, ABŞ alimlərinin xahişi ilə 2-ci dünya savaşı zamanı Kyoto bombalanmadı.

Kinkakuji - Qızıl salon (pavilyon) məbədi - hər mərtəbəsi fərqli memarlığa malik olan bu 3 mərtəbəli qızıllı bina gözəllik məbədi adlandırıla bilər. Ətrafdakı bağ və bütöv kompleks, Klassik Çay Evi və orada içdiyimiz çay bu həzin gözəlliyin daha bir parçası oldu. Yaponiyada olduğum müddətdə bir neçə dəfə çay mərasimini yaşadım, deyə bilərəm. Yapon bağları-kiçik qayalar, xırda səliqə ilə dırmıqlanmış daşlar, ki-

çik ağaclar Yapon təbiətinin modelidir, Yapon simvolizminin nümayişidir.

Koryuji məbədi, onun orta əsrlər abidələri ilə məşhur olan Reihokan muzeyi bənzərsizdir.

Qədim Nara dövründə koreyalılar Yapon dövlətçiliyində əsas rol oynamışlar. Yaponların dediyinə görə, indi də Nara Yapon mədəniyyəti şəhəri deyil, xarici ruh var orda. Nara park-ölkənin bu ən böyük parkında insanların arasında sakit-sakit gəzən yüzlərlə ceyranlar adamların əlindən yemək yeməkdən nə utanır, nə çəkinirlər.

Buradakı Daibutsuden (Böyük Buddanın evi) dünyanın ən böyük ağac tikilisiymiş.

Daibutsunun-Böyük Buddanın ağırlığı 437 ton, hündürlüyü 16,2 metrdir. Gözünün diametri 1,2 metr olan Buddanı təmizləyənlər onun bir burun deşiyindən girib o birindən çıxırlarmış. Böyük Budda bürüncdəndir, üzəri qızıllanmışdır. Bu nəhəng Todai-ji məbədi haqqında deyilən "dünyanın ən böyük ağaç binasıdır" ifadəsi baxanlarda şübhə doğurmur. Bu bina bir neçə dəfə yanıb, dağılıb, bərpa olunub. Dəfələrlə dağılmış, yanmış və sonralar bərpa olunmuş bugünkü bina əsl orijinal binadan xeyli kiçikmiş, onun yalnız üçdə ikisi qədərmiş. Burada əsrlərlə bir çox buddist kahin və alimlər yetişmişlər.

Məbədin içində bir ağac sütunun içində dar deşik var, oradan sürünüb keçə bilənin göylərdə yeri təmin olunur. Məni də sınağa dəvət etdilər. Nə olur-olsun, çəkinmədən başım və bədənimlə deşiyə girməyə başladım. İçəri doğrudan da çox dar idi, əllərimin iki olması sanki mane olurdu. Taktikanı tez hazırlaya bildim və deyilənə görə o biri tərəfdən çox tez çıxdım. Girəndə şəklimi yaxşı çəkdilər, çıxanda isə deyəsən təəccübdən çaşmışdılar. Rəhman da sınadı, alınmadı. Ona təsəlli verdim və taktikamı izah etdim ki, sonralar göylərdə yerini təmin etməyə çalışsın.

Milli mədəniyyət xəzinəsi hesab olunan Horyuji Yaponiyanın ən qədim ağac memarlıq abidəsidir (və dünyanın çox az sayda ən qədimlərindən biridir). Prins Şotoku tərəfindən əsası qoyulan bu Buddist kompleksin tarixi 607-ci ildən başlayır (Horyuci kəlməsi Buddizmə işarə olaraq "Çiçəklənən qanun məbədi" deməkmiş). Buradakı beşmərtəbəli Kofukuji məbədi - Paqodanın şəklini bir rəmz kimi Yaponiyanı təsvir edən bütün qaynaqlarda görmək olur.

Naraətrafı Kinki dağları, Daisen-İn Zen məbədi, Osaka ətrafı Hyogo prefekturasında qızıl və gümüş suları, rəngli isti daşları ilə məşhur olan Arima Onsen, eləcə də Kurama Onsen, uzun qırmızı burunlu Tenqu və s. və s. Bütün bunları və daha nələri öyrəndim, gördüm, daddım...

Kyotonun mərkəzində yerləşən - Hiiragiya Ryokan - bu məşhur yapon otelində qalıb onun ruhunu hiss etdim. 1818-dən başlayan bir ailə ənənəsi ilə yaşayır, qonaq qəbul edir, qulluq edir, heç yerdə olmayan qədər incə, nəfis yeməklərlə yedizdirir öz sakinlərini və cəzb edir bu qeyri-adi yer. "Kyotoya gələndə Hiraqiyada qalıram. Burada Qədim Yaponiyanın əzəmətini, zati-alisini hiss edirəm. Hiragiya doğrudan da qədim mərkəz Kyotonun simvollarından biridir" (Yasunari Kawabata-1899-1972, Nobel mükafatı laureatı-1968).

- Çox sağ olun! Yaponiya, Yapon xalqı, ruhu, incəlikləri barədə danışdınız, bizi Yaponiya ilə tanış etdiniz... Xeyli məlumat verdiniz, çox maraqlı fikirlər söylədiniz bu gözəl ölkə və xalq haqqında...

- Gözəl ölkə və gözəl xalq - doğri dediniz. Mən əlavə edərdim –zəhmət çəkməyi bacaran, nizam-intizamlı, birinci olmaq həvəsi ilə yaşayan insanların ölkəsi. Lakin heç yerdə ideal mövcud deyil, o cümlədən də Yaponiyada. Sadəcə biz Yaponiyanın tarixi, uğurları, mədəniyyəti və gözəllikləri barədə söhbət açdıq, bunları bilmək daha maraqlıdır.

Yaponiyada da xeyli problemlər mövcuddur.

Yığıla-yığıla gələn iqtisadi-sosial problemlər 1989-dan başlayaraq ciddi böhrana gətirdi. Doğum dərəcəsi azaldı. Əhali sürətlə yaşlılaşdı (burada Yaponiya dünya rekordçusudur). Yaponiya hal-hazırkı qlobal iqtisad-maliyyə böhranından ən çox ziyan görmüş ölkələr arasındadır.

Mənimlə dərdləşən Yapon professoru gənc nəsildən şikayətlənirdi – az kitab oxuyurlar və ya heç oxumurlar, milli hissləri zəifləyib, Qərb düşgünüdürlər, eqoizm artıb, tərbiyələri pozulub...

Baxın, elə bizdə olan şikayət kimidir...

Yapon formalizmi Qərblə yaxın təmasda olmuş insanları bəzən yorur (bu, təbii ki, mənim sözüm deyil, onların öz dedikləridir).

Ətraf mühitin çirklənməsi problemləri cəmiyyəti ciddi narahat edir, sənayeləşmənin ən yüksək səviyyəyə çatdığı bu ölkədə ətraf mühit məsələsi sadə deyil.

Yaponiyada da kriminallar mövcuddur. Tokyoda müəyyən yerləri alıb tikinti aparmaq cəhdi qanqsterlərin qəzəbinə düçar olmaqla böyük başağrısı törədə bilər...

Yaponların sevdiyi təbiət də bu sevgiyə bəzən qarşılıq vermir, zəlzələlər, tayfunlar öz işini görür.

Yaponiyadan, bu gözəllik, zəriflik və möcüzələr ölkəsindən ayrılmaq çətindir. Amma vətən, Azərbaycan da məni gözləyirdi və mən də vətənə can atırdım. Ariqatou (sağ ol), Yaponiya!

Sayonara (salamat qal), Yaponiya! Tanrı səni zəlzələlərdən, fırtınalardan, bəd gözlərdən, zamanın yıxıcı-yırtıcı üzündən qorusun.

ANALİTİKA

HARAYA ÜZ TUTMALI: KİTAB MAĞAZASINA, YOXSA "GOOGLE" SAYTINA?

Çexiyada təzə kitab almaq istəyən hər bir mütaliə həvəskarının təxminən iki ildən sonra özünə sərlövhəyə çıxarılmış bu sualı verəcəyi istisna olunmur. Ona görə ki, "Google" korporasiyasının istifadəyə verməyə hazırlaşdığı "Google Books Library" elektron kitabxanasında avropalı müəlliflərin minlərlə əsəri üçün də yer tapılmışdır. Lakin Çexiya Kitab Ticarətçiləri və Naşirlər İttifaqı amerikalıların əlində alətə çevrilmək fikrində deyil və öz müəlliflərinin hüquqları uğrunda sona qədər mübarizə aparmağa hazırlaşır.

Çexiya Kitab Ticarətçiləri və Naşirlər İttifaqının nümayəndələri media nəhəngi "Google" şirkətini açıq-aşkar "pirat" adlandırırlar. 2004-cü ildən bəri bu şirkətin elektron kitabxanasına hər gün 4 min yeni kitab əlavə edilir və hazırda həmin kitabxanada 7 milyona yaxın adda kitab vardır. Çexiyalı naşirlər "Google" saytına müraciət edəndə dəhşətə gəlmişlər, çünki hər bir çexin qəlbən özünə yaxın hesab etdiyi əsərlərin - Bojena Nemtsevonanın "Nənə", Yaroslav Qaşekin "Qoçaq əsgər Şveykin sərgüzəştləri", Yan Nerudanın "Malostranski povestləri" və başqa kitabların rəqəmsal variantları "Google Books Library" kitabxanasının "Çex ədəbiyyatının qızıl fondu"na daxil edilmişdir.

Korporasiyanın milyonlarla kitabı müəlliflərin xəbəri olmadan rəqəmsal formata çevirmək barədə planından narazı olan təkcə çexiyalı naşirlər deyil. Amerika Naşirlər Assosiasiyası və ABŞ Müəlliflər Gildiyası 2005-ci ildə "Google" şirkətini məhkəməyə vermişdi. Bu çəkişmə iddiaçılarla cavabdeh arasında barışıq sazişi ilə nəticələnmişdir. Əgər Nyu-York məhkəməsi həmin sazişi təsdiq edərsə, İnternet kitabxananın açılması üçün "yaşıl işıq" yandırılacaqdır. Lakin Çexiya Kitab Ticarətçiləri və Naşirlər İttifaqı onu da vurğulayır ki, adı çəkilən barışıq sazişində yalnız amerikalı naşirlərin maraqları nəzərə alınmışdır və həmin saziş Avropada qəbul edilmiş müəlliflik hüququ ilə bir araya sığmır.

Barışıq sazişinə görə, "Google" ABŞ-da kommersiya yolu ilə əldə edilə bilinməyən kitabların rəqəmsal surətlərini İnternetdə yerləşdirə bilər. Avropada nəşr edilən kitabların, demək olar ki, hamısı, o cümlədən bestsellerlər həmin kateqoriyaya uyğun gəlir. Lakin bir məsələ aydın deyil: "Kommersiya yolu ilə əldə edilə bilinməyən kitab" nə deməkdir? Çexiyada kitab satışı ilə məşğul olan bir neçə distribyutor firması fəaliyyət göstərir. Onlar hansı kitabları bazardan almağın mümkün olması və hansı kitabların artıq tamamilə satılması barədə məlumat təqdim edə bilərlər, lakin Çexiyada bəzi naşirlər öz kitablarını özləri yayır və informasiya bazasında həmin kitabları əldə etməyin nə dərəcədə mümkün olması barədə məlumat yoxdur. Bu o deməkdirmi ki, həmin naşirlərin kitabları "kommersiya yolu ilə əldə edilə bilinməyən kitab" hesab edilməlidir?

Çexiyalı naşirlər "Google Books Library" kitabxanası ilə tanış olaraq aydınlaşdırmışlar ki, onlarda satılan kitabların 95 faizi orada "kommersiya yolu ilə əldə edilə bilinməyən kitablar" kimi göstərilmişdir. Düzdür, bu kitabların əksəriyyəti hələ rəqəmsal formaya çevrilməmişdir, lakin İnternet nəhənginin skanerinin gec-tez onları da "həzm" edəcəyi şübhəsizdir.

Müəllif hüquqlarının qorunmasında müddəti keçmiş kitablarla əlaqədar heç bir çətinlik yaranmır. Müəllifin vəfatından 70 il sonra onun kitabları sərbəst nəşr edilə bilər. "Kommersiya yolu ilə əldə edilə bilinməyən" əsərlər və "yetim" kitablar, yəni müəllif hüquqlarının qorunma müddəti formal baxımdan hələ başa çatmamış, lakin bu hüquqların kimə məxsus olmasını aydınlaşdırmaq mümkün olmayan kitablarla əlaqədar problemlər qarşıya çıxır. Çexiya qanunlarına görə, bu cür "yetim" kitabların müəllifini tapmaq mümkün olmadıqda belə, müəllifin razılığı olmadan həmin kitablar nəşr edilməməlidir. "Google" isə bu cür kitabları da skanerdən keçirir. Belə əsərlərin ictimaiyyət üçün hansı yolla əlyetərli edilməsi məsələsi uzaq məsafəyə qaçış yarışlarına oxşayır. Bu məsələ Avropa İttifaqında həllini gözləyir, hələlik isə hər iş qanunla müəyyən edilmiş prosedur üzrə davam edir. Çexiyalı naşirlərin fikrincə, "Google" korporasiyasının hərəkətləri Avropa müəllif hüququ normalarına ziddir. "Google" korporasiyasının Çexiyadakı nümayəndəliyi isə narazı naşirləri sakitləşdirərək, onların xahişinə əsasən çex kitablarının elektron kitabxanadan çıxarılacağını vəd edir. Lakin həmin kitabların çıxarılması ikinci addım olacaqdır, əvvəlcə bütün kitablar şəbəkəyə salınacaqdır.

Bəs, çexiyalı naşirlərin "Google" ilə onların da maraqlarını nəzərə alan barışıq sazişi bağlamaq şansı varmı? Kitab Ticarətçiləri Birliyinin İdarə Heyətinin sədri Marek Peçenka demişdir: "Biz "Google" ilə saziş bağlamağın əleyhinə deyilik, bu şərtlə ki, həmin saziş Avropada qüvvədə olan müəllif hüququ prinsiplərinə əsaslansın. Avropada hər hansı kitabın dərc edilməsindən və yayılmasından əvvəl lisenziya sazişi bağlanır.

Avropalı naşirlərin elektron kitabxana layihəsinə etirazı "Google" şirkətini narahat etməyə başlamışdır. Korporasiyanın bir neçə əməkdaşına tapşırılmışdır ki, Avropada vəziyyəti tənzimləsinlər. Lakin Çexiya Kitab Ticarətçiləri və Naşirlər İttifaqının nümayəndələrinin fikrincə, Amerikanın bu nəhəngi, çox güman ki, avropalıların şərtlərini qəbul edə bilməyəcəkdir. Marek Peçenka demişdir: "Google" korporasiyasının bu işi həmin layihənin həyata keçirildiyi sürətlə görməsi texniki baxımdan qeyri-mümkündür. Gündə 4 min kitabı skanerdən keçirmək və gündə 4 min lisenziya müqaviləsi bağlamaq ayrı-ayrı məsələlərdir. Lisenziya sazişlərinin bağlanması asan iş deyil, çünki bu halda təkcə mətnlərdən yox, həm də illüstrasiya və qrafik işlərdən söhbət gedir, "Google" isə məsələnin bu aspektlərinə əhəmiyyət vermir, çünki o, mətnləri İnternetdə mümkün qədər qısa müddətdə yerləşdirməyə çalışır".

Vüqar SEYİDOV,
AzərTAc-ın xüsusi müxbiri,
Praqa

ELM

NİZAMİ SÜLEYMANOVUN YENİ İXTİRASI



Foto ilə insanın ölüb-ölmədiyini dəqiqləşdirmək mümkündür.

Azərbaycan Milli Yaradıcılıq Akademiyasının prezidenti, akademik Nizami Süleymanovun və onun tədqiqat qrupunun 2005-ci ildən bəri apardığı araşdırmalar maraqlı nəticə verib. Bu barədə Lent.az-a açıqlamasında N.Süleymanov özü bildirib.

Onun sözlərinə görə, əgər rəqəmsal fotoaparatlarla çəkilmiş şəkildə insanın gözü də obyektivə düşübsə, həmin şəxsin harada olmasından asılı olmayaraq onun sağ, yaxud ölü olması məlum olur: "Biz insanın gözü və fotosu arasında energetik əlaqə olduğunu dəqiqləşdirmişik".

Tədqiqat prosesində mindən çox canlı, o cümlədən insanlar üzərində araşdırma aparılıb. "İnsan sağdırsa, onun gözü dalğa enerjisinin ötürücüsü olaraq mənbə rolunda çıxış edir. Foto isə qəbuledici rolundadır. Bu, insan sağ olduğu müddətdə davam edir. İnsan dünyasını dəyişdikdə, gözündən fotoya gedən dalğa əlaqəsi kəsilir. Beləliklə də, ixtira etdiyimiz üsuldan istifadə edərək, insanın fotosunu tədqiq etməklə onun həyatda olub-olmadığını müəyyənləşdirə bilirik. Bu, fiziki-kimyəvi ekspertiza üsuludur" – deyə, N. Süleymanov bildirib.

Ekspertiza üsulu itkin düşmüş və axtarışda olan insanların sağ olub-olmaması haqqında sadə vətəndaşlara və hüquq-mühafizə orqanlarına geniş məlumat verəcək.

Ekspertizaya təqdim olunan hər hansı insanın tək çəkilmiş şəkli rəqəmli aparatla çəkilməli və onun tarixi son illərə aid olmalıdır. Tədqiqat qrupu bir gün müddətində dəqiq nəticəni müəyyən edərək açıqlayır.


"Biz ixtira etdiyimiz üsulu nəinki satmırıq, onu həm də kimsəyə nümayiş etdirmirik" – deyə, N. Süleymanov əlavə edib.

Ekspertiza pulsuzdur. Ekspertizaya müraciət etmək istəyənlər üçün telefon nömrələri: (012) 502 06 28, (050) 643 20 86

Pərvin ABBASOV

ƏBDÜLQƏNİ NUXƏVİNİN NƏZƏRİ İRSİNƏ AİD YENİ KİTABIN TƏQDİMATI

Şəki Turizm İnformasiya Mərkəzinin akt zalında XIX əsrin tanınmış alimi, pedaqoqu və kitabşünası Əbdülqəni əfəndi Nuxəvi Xalisəqarızadənin nəzəri irsinə aid "Qazıxana dəftəri" kitabının təqdimat mərasimi keçirilmişdir. Kitabı nəşrə AMEA M.Füzuli adına Əlyazmalar İnstitutunun əməkdaşı, filologiya elmləri doktoru Kamandar Şərifov hazırlamışdır. Tədbirdə şəhər icra hakimiyyəti başçısının müavini Zərinə Cavadova XIX yüzilliyin tanınmış alimi Ə.Nuxəvinin həyat və yaradıcılığı, pedaqoji fəaliyyəti barədə məlumat vermiş, onun Azərbaycan əlyazma sənətinin inkişafındakı mühüm rolundan bəhs etmişdir. Bildirmişdir ki, Əlyazmalar İnstitutunun əməkdaşı Kamandar Şərifov Əbdülqəni Nuxəvi irsinin tədqiqatçılarından biridir. Oxuculara yeni təqdim olunan "Qazıxana dəftəri" müəllifin görkəmli alimin həyat və fəaliyyəti, nəzəri irsindən bəhs edən sayca üçüncü kitabıdır.



K.Şərifov bildirmişdir ki, ensiklopedik biliyə malik olan Ə.Nuxəvinin yaradıcılığı olduqca rəngarəng və çoxcəhətli idi. Əlyazma kitab mədəniyyətinin qorunub saxlanması, inkişafı və təbliğində onun əvəzsiz xidmətləri olmuşdur. Hazırda Əlyazmalar İnstitutunda Ə.Nuxəvinin iki mindən artıq əlyazması qorunub saxlanılır.

Qeyd olunmuşdur ki, Nuxəvi Xalisəqarızadə XIX əsrin 60-cı illərində Şəkinin baş qazisi vəzifəsində işlədiyi müddətdə nikah müqaviləsi bağlayanları və vəfat edənləri özünün "Qazıxana dəftəri"ndə qeydə almışdır. Bu dəftər Şəkinin keçmiş tarixinin, əhalisinin, səhiyyəsinin, eləcə də ailə hüququ ilə bağlı məsələlərin öyrənilməsi baxımından çox dəyərli qaynaqlardandır.

Azərbaycanda doktoranturaya qəbula dair Əsasnamə və qəbul qaydaları hazırlanıb



Bu barədə APA-ya AMEA prezidenti Mahmud Kərimov məlumat verib. Onun sözlərinə görə, əsasnamə və qəbul qaydaları yaxın günlərdə Azərbaycan Nazirlər Kabinetinə təqdim olunacaq. AMEA prezidenti deyib ki, bu il Azərbaycanda doktoranturaya qəbul aparılmayacaq: "Əsasnamə və qəbul qaydalarına müvafiq nazirliklər də öz rəylərini verməlidir. Bu rəylər ümumiləşdirilməndən sonra sənəd təsdiqlənəcək. Doktoranturaya qəbul bundan sonra baş tutacaq. Yəqin ki, biz doktorantura mərhələsinə qəbulu gələn il həyata keçirə biləcəyik".

Gürcüstandakı Azərbaycan məktəblərində gürcü dilində olimpiada keçiriləcək



Oktyabrın 27-də Azərbaycanın Diasporla İş üzrə Dövlət Komitəsinin (DİDK) sədri Nazim İbrahimov Gürcüstanın Kvemo-Kartli bölgəsi qubernatorunun müavini Hüseyn Yusifovla görüşüb. Bu barədə Lent.az-a Komitənin mətbuat xidmətindən məlumat verilib.

Görüşdə Gürcüstanda yaşayan azərbaycanlıların problemləri, təhsil və torpaqla bağlı həllini tapmayan bəzi məsələlər və onların çözüm yolları, soydaşlarımızın Gürcüstan cəmiyyətinə inteqrasiyası ilə bağlı həyata keçirilən layihələr barədə müzakirə aparılıb.

Diasporla İş üzrə Dövlət Komitəsinin dəstəyi ilə qonşu ölkədəki Azərbaycan məktəblərində açılan gürcü dili kurslarının fəaliyyətini və səmərəsini yüksək dəyərləndirən qubernator müavini deyib ki, Gürcüstan dövləti də Azərbaycan hökumətinin bu ölkədəki soydaşlarımızın cəmiyyətə inteqrasiyası ilə bağlı reallaşdırdığı layihələri dəstəkləyir və lazımi köməyi əsirgəmir. Belə ki, gürcü dili kurslarına Gürcüstan Təhsil Nazirliyi də dərsliklər təqdim edib. Hüseyn Yusifov onu da bildirib ki, Kvemo-Kartli Qubernatorluğunun təşəbbüsü ilə Gürcüstandakı Azərbaycan məktəblərində gürcü dili üzrə olimpiada keçiriləcək.

Görüşdə Hüseyn Yusifov Kvemo-Kartli qubernatoru David Kirkitadzenin Azərbaycan Respublikası Diasporla İş üzrə Dövlət Komitəsi rəhbərinin dəvətilə bu ilin sonunadək Azərbaycana səfərə gələcəyi barədə məlumat verib.

Qubernator müavininin sözlərinə görə, Gürcüstan dövləti dekabr ayının əvvəllərinə nəzərdə tutulan Gürcüstanda yaşayan Azərbaycanlı Gənclərin Forumunun keçirilməsini dəstəkləyir və tədbirin təşkilinə kömək göstərməyə hazırdır.

Diasporla İş üzrə Dövlət Komitəsinin sədri Nazim İbrahimov bildirib ki, Gürcüstanda yaşayan soydaşlarımızın cəmiyyətə inteqrasiyası məqsədilə Azərbaycan dövlətinin dəstəyi ilə həyata keçirilən layihələr bundan sonra da davam etdiriləcək. Nazim İbrahimov qeyd edib ki, DİDK Gürcüstandakı Azərbaycan məktəblərində açılan gürcü dili kurslarının fəaliyyətini yaxın gələcəkdə daha da genişləndirməyi planlaşdırır, bunun nəticəsində aşağı sinif şagirdlərini də kurslara cəlb etmək mümkün olacaq.

POEZİYA

Enis Behiç Koryürek
Türkiyə

Son aşkıma

Ey benim gül demetim, ey bir çile ipeğim!
Seni çok seviyorum, daha çok seveceğim.
Sen benim kuraklıktan solan gönül
bahçemde,
Sen benim şu yıldızsız kalan hulya gecemde
Bir son bahar değilsin, sonuncu bir baharsın;
Ufkumda fecri açan gül kanatlı rüzgarsın.
Şiirimdeki heyecan bu gün sendedir ancak,
Bu şiirim bende artık son heyecan olacak.
Şu gönlüm bilsen, nasıl çırpınarak yoruldu.
Bir güzelden kurtuldu, bir güzele vuruldu.
Her birinde bir parça daha yorgun düşerek,
Kimine lanet edip kimiyle öpüşerek,
Nihayet, işte bu gün hepsinden ayrılmışım;
O kadar bıkkınım ki, mazime darılmışım...
Sen ki bir çocuk kadar şakraksın, neşelisin;
Sen ki aşka gençlikle koşan güzel delisin;
Bana mahkum olduğun lahzalar var sanırım;
Busemle ürperdiğin o anları tanırım.
Ey cici kırlangıcım, benim ipek böceğim!
Yaklaş, sana pek gizli bir şey söyleyeceğim:
Seni gittikçe fazla seviyorum yaramaz!
Bugün dünden daha çok ve yarından daha
az..
Kıymetli tutuyorsun, değil mi, bu sevgimi?
Yalvarırım, beni hep titreyerek sev, e mi!
Bakışımdan korkarak, göğsüme sokularak,
Aşkın bütün şiirini her an bende bularak...
Yalvarırım, böyle sev! Bana karşı aciz ol!
Sevişmekte zalimlik, inan ki, en fena yol..!
Artık mücadelesiz, gözyaşından müstağni
Bir sevgiye muhtacım, sen de böyle sev beni.
O ipekten göğsünde bırak başım dinlensin!
Bir çile ipeğim sen, gül demetim de sensin!
Sakın, sanma bıkarım tatlı buselerinden...
Sevilmek ihtiyacı bende öyle derinden
Gelen bir iptila ki, severim sevildikçe.
Esirinim, seririm olduğunu bildikçe.
Şairliğim seninle en bahtiyar, en mağrur
Anındayken düşün ki, gençliğimin sonudur.
Bırak gönlüm kendini bu aşka hakim sansın!
Genç kadın, mahkum ol ki ona hakim
olansın...

Orxan Vəli
Türkiyə


Birdən-birə

Hər şey birdən-birə oldu.
Birdən-birə vurdu gün işığı yerə;
Göy üzü birdən-birə oldu;
Mavi birdən-birə.
Hər şey birdən-birə oldu;
Birdən-birə çıxmağa başladı duman
torpaqdan;
Filiz birdən birə oldu, tumurcuq birdən-
birə.
Yemiş birdən-birə oldu.

Birdən-birə,
Birdən-birə;
Hər şey birdən-birə oldu.
Qız birdən-birə, oğlan birdən-birə;
Yollar, qırlar, pişiklər, insanlar...
Eşq birdən-birə oldu,
Sevinc birdən-birə.

MƏDƏNİYYƏT

"MANAS" EPOSU AZƏRBAYCAN DİLİNDƏ



Oktyabrın 15-də Azərbaycan Yazıçılar Birliyinin (AYB) "Natəvan" klubunda AMEA Folklor İnstitutunun böyük elmi işçisi, şair, publisist, tədqiqatçı Adil Cəmilin tərcüməsində çapdan çıxan qırğız eposu "Manas"ın təqdimat mərasimi keçirilmişdir.

AYB-nin katibi, xalq şairi Fikrət Qoca, filologiya elmləri doktoru Şirindil Alışanov, AYB-nin gənclər üzrə katibi Arif Əmrahoğlu, yazıçı Nahid Hacızadə, şairlər İlyas Tapdıq, Oqtay Rza, Mahirə Abdulla və başqaları türk xalqlarının təfəkkür tarixində böyük əhəmiyyəti olan, türkün soykökü, tarixi haqqında geniş məlumat verən "Manas" eposundan, A.Cəmilin tərcüməsində təqdim olunan kitabın böyük əhəmiyyətindən danışmışlar.

Bildirilmişdir ki, A. Cəmil nəzmlə yazılmış "Manas" eposunu nəsr şəklində, yığcam variantda, qırğız dilində nəşr etdirmiş Keneş Yusupovun tərcüməsinə müraciət etmişdir. Kitabda Manasın dünyaya gəlməsi, uşaqlığı, yeniyetməlik dövrü, yurdunun azadlığı naminə qanlı döyüşlərə atılmağı, qələbələri və digər hadisələr yığcam, canlı şəkildə öz əksini tapmışdır. Bu gün də təravətini itirməyən əsərin ana dilimizdə səslənməsinin son dərəcə vacib olduğu bildirilmişdir.

FƏXRİ XİYABANDA GÖRKƏMLİ BƏSTƏKAR VƏ MÜĞƏNNİ MÜSLÜM MAQOMAYEVİN XATİRƏSİ YAD EDİLMİŞDİR

Oktyabrın 22-də Fəxri xiyabanda Azərbaycanın böyük oğlu, SSRİ xalq artisti Müslüm Maqomayevin vəfatının bir illiyi münasibətilə xatirəsi yad edilmişdir.

Dünyanı fəth edən bariton səsli məşhur musiqiçi Müslüm Maqomayevin ölümündən bir il ötsə də, onun əziz xatirəsi unudulmur. Zəmanəmizin musiqi aləminin ən parlaq ulduzlarından olan Müslümlə bağlı xatirələr daim anılır. O, hər zaman dostlarının əhatəsində idi. Çünki bütün dostları Müslümü sevirdi, ona güvənirdilər.


Onunla vida günündə olduğu kimi, yenə də yüzlərlə Müslümsevər Fəxri xiyabana gəlmişdi. Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyeva, Fondun Rusiya Federasiyasındakı nümayəndəliyinin rəhbəri Leyla Əliyeva, musiqiçinin həyat yoldaşı Tamara Sinyavskaya və qızı Marina Maqomayeva da mərasimdə iştirak edirdilər. Anım günündə Müslüm Maqomayevin məzarı üstündə xatirə abidəsi də hazır idi. Xalq rəssamı Ömər Eldarov abidəni ağ ural mərmərindən hazırlamışdır.

Xalq rəssamı bildirmişdir ki, onun üçün Müslüm Maqomayevin obrazını yaratmaq böyük şərəf idi. Bu işin üzərində çalışarkən musiqiçinin həyat yoldaşı və dostları ilə belə qərara gəldik ki, Müslüm Maqomayev hər zaman səhnədə çıxış edən, romantik, gözəl görünüşlü və güclü əks olunmalıdır. Mən abidədə bu hissləri əks etdirməyə çalışmışam.

Müslüm Maqomayevlə bağlı xatirələrin hər zaman yaşayacağını deyən dostları – Baş nazirin müavini, xalq yazıçısı Elçin Əfəndiyev, xalq artsiti Arif Məlikov, Rusiya Federasiyası Dövlət Duması sədrinin müavini Lyubov Sliska, xalq artisti Eldar Quliyev çıxış etmişlər. Onlar Müslümün böyük xatirəsindən, onun təkrarsız səsindən və mahir ifaçılığından danışmışlar. Bildirmişlər ki, Müslüm səhnə görünüşü, mükəmməl səsi və xoşbəxt ailə mühiti ilə əhatə olunan nadir insanlardan idi. Ulu öndər Heydər Əliyevlə qırılmaz dostluq münasibətlərindən danışan dostları xüsusilə vurğulamışlar ki, dövlətimizin başçısı İlham Əliyev də Müslüm sənətinə daim böyük hörmətlə yanaşmışdır. Bu gün məzarı üstündə ucalan xatirə abidəsi də bu hörmətin bariz nümunəsidir.



OKSANA RƏSULOVA – RUSİYADA KEÇİRİLƏN BEYNƏLXALQ HİND RƏQSLƏRİ MÜSABİQƏSİNİN QALİBİ



Azərbaycanlı rəqqasə Oksana Rəsulova Rusiyanın paytaxtı Moskvada keçirilən iki beynəlxalq hind rəqsləri festival-müsabiqəsində iştirak edib. Onun APA-ya verdiyi məlumata görə, həmin festival-müsabiqələrdən biri Hindistanın Mədəniyyət Festivalı "Divaly - 2009" olub. Həmin festivalda Azərbaycanı təmsil edən həmyerlimiz birinci yerə layiq görülüb: "Bu müsabiqədə 10-a yaxın ölkə iştirak edirdi. Festivalda solo hind rəqsləri müsabiqəsi keçirildi. Həmin müsabiqədə Azərbaycan birinci yeri qazandı. Müsabiqədə müxtəlif ölkələri təmsil edən münsiflərin hamısı mənə ən yüksək 10 xalı verdilər".

O, Rəsulovanın bildirdiyinə görə, müsabiqədə ikinci yerə Ukrayna, üçüncü yerə isə Rusiya rəqqasları layiq görülüb: "Bu zamana kimi bir çox beynəlxalq festivallarda iştirak etmişəm, ancaq ilk dəfə idi ki, çox güclü rəqiblərlə yarışırdım. Festivalın yekununda mənə birinci yerin kubokunu və birinci dərəcəli diplomu təntənəli surətdə təqdim etdilər".

Həmyerlimizin ölkəmizi təmsil etdiyi ikinci müsabiqə isə hind rəqslərinin üçüncü açıq festival-müsabiqəsi idi: "Bu müsabiqə də Rusiyada keçirildi. Ötən illərdə bu müsabiqədə mən birinciliyi qazanmışdım. Bu dəfə isə müsabiqədə birinci və ikinci yer Rusiya rəqqaslarına, üçüncü yer isə Azərbaycana verildi. Azərbaycanın adını üçüncü çəkəndə bütün zaldakı tamaşaçılar gülüşürdülər, çünki nəticə onları qane etməmişdi. Festivaldan sonra münsiflər heyətində təmsil olunan müasir və klassik hind rəqslərini tədris edən müəllim Aşvanini Neqam mənə yaxınlaşdı və mənim rəqsimə heyran olduğunu bildirdi. Dedi ki, həm artistlik, həm rəqs, həm də hind elementlərinə görə mənə



ən yüksək xalı verib".

Azərbaycanlı rəqqasənin sözlərinə görə, bu festival Hindistanın Rusiyadakı səfirliyinin təşkilatçılığı ilə keçirilib. Festivalın sonunda qala konsertdə iştirak edən Oksana Rəsulova yeni təkliflər aldığını da vurğulayıb: "Elə orada olanda "India TV" kanalından bir neçə təklif aldım. Həmin kanalın bir neçə maraqlı proqramına, konsertlərə dəvət olundum. Eləcə də, Hindistanda keçiriləcək müsabiqələrdə də iştirak etməyə dəvət almışam".

Ülkər QASIMOVA,
APA

TOFİQ QULİYEVƏ HƏSR OLUNMUŞ ƏDƏBİ-BƏDİİ MÜSAMİRƏ




Oktyabrın 20-də Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin təşkilatçılığı ilə "Kapellhaus" Alman-Azərbaycan Mədəniyyət Mərkəzində tanınmış bəstəkar, xalq artisti, əməkdar incəsənət xadimi Tofiq Quliyevə həsr olunmuş "Sənə sevirəm dedim " adlı musiqili ədəbi-bədii müsamirə keçirilmişdir.

Müsamirədə Tofiq Quliyevin yaradıcılığından seçmələr və indiyədək ifa olunmayan instrumental əsərləri təqdim olunmuşdur.

Tarda (dosent Gülağa Zeynalov) və pianoda (bəstəkar Ülviyyə Vəliyeva) ifa olunan instrumental musiqi sədaları altında tanınmış Azərbaycan şairlərinin şeirləri sənətşünaslıq namizədi, dosent Məleykə Məmmədova və respublikanın əməkdar artisti, dosent Azad Şükürovun ifasında səslənmişdir. Tədbirdə Azərbaycan Mədəniyyət və Turizm Nazirliyinin və Almaniya Federativ Respublikasının ölkəmizdəki səfirliyinin nümayəndələri iştirak etmişlər.

LEONARDO DA VİNÇİNİN ANASI AZƏRBAYCANLI OLUB!




Dünyanın ən məşhur rəssamlarından biri sayılan Leonardo da Vinçinin (1452-1519) ana tərəfdən azərbaycanlı olduğu iddia edilib.

Lent.az-ın Türkiyənin Cihan Xəbər Agentliyinə istinadən verdiyi məlumata görə, bu iddia ilə Leonardo da Vinçinin həyatıyla bağlı araşdırma aparan kanadalı Luiz Buff Parri çıxış edib.

Azərbaycan və Türkiyənin Kanadadakı səfirliklərinin bu ölkənin Beynəlxalq Kitabxanasında düzənlədiyi seminarda tədqiqatçı-yazar Parri Leonardo da Vinçinin həyatı barədə danışıb. O, məşhur italyan rəssamın əslində anasının əslən azərbaycanlı müsəlman bir qadın olduğunu deyib. Tədqiqatçı azərbaycanlı qadının İtaliyaya getməsini isə "kölə kimi bu ölkəyə aparılıb" şəklində izah edib. İtaliyada isə Leonardo da Vinçinin anasına Katerina adı verilib.

Tədqiqatçının sözlərinə görə, əslində Leonardo da Vinçinin atası Pyero Fruosina ilə Katerina evli olmayıblar. Araşdırmaçı Parri italyan rəssamın anasının kölə olaraq satılması ilə bağlı sənədlərin tarixçilər tərəfindən axtarıldığını da deyib.



O, Leonardo da Vinçinin vaxtilə İstanbulda körpü tikmək üçün Osmanlı padşahı İkinci Bəyazidə məktub yazdığı barədə də seminar iştirakçılarına məlumat verib.Leanardo da Vinçi rəssam olmaqla yanaşı alim, memar, botanik, musiqiçi və yazıçı olub.Yaratdığı rəsm əsərləri arasında "Mona Liza" və "Last Supper" dünya şöhrətli əsərlər hesab olunur.

"ÇANAQQALADAN BAŞLANAN YOL" SƏNƏDLİ FİLMİ HAZIRDIR



Azərbaycanda "Çanaqqaladan başlanan yol" sənədli filmi çəkilib.

Bu barədə Lent.az-a Azərbaycan Prezidenti yanında Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurasının mətbuat xidmətindən məlumat verilib.

Sənədli film Şuranın maliyyə yardımı ilə çəkilib.

Film 1920 -1922-ci illərdə Türkiyənin milli istiqlal savaşına Azərbaycan türklərinin yardımından bəhs edir.

Filmin ssenari müəllifi Arzu Qazıyeva bildirib ki, "Çanaqqaladan başlanan yol" filmi "AQAP" prodüser mərkəzində tanınmış prodüser Bəxtiyar Həsənov tərəfindən çəkilib. Filmin quruluşçu rejissoru Rövşən İsmayılov, operator Nuray Səfərlidir.


Film layihəsi Türkiyənin Azərbaycandakı səfirliyi tərəfindən də dəstəklənib. Arzu Qazıyevanın sözlərinə görə, XX əsr Azərbaycan, eləcə də Türkiyə tarixində bəzi qaranlıq məqamlarla yanaşı, açılmamış çoxlu şərəfli səhifələr var: "Məncə, bu səhifələrin dərindən araşdırılması hər iki ölkəyə başucalığı gətirər. İndiyədək müxtəlif səbəblər üzündən açılmamış bu şərəfli məqamları xalqa təqdim etmək lazımdır".

Arzu Qazıyeva deyib ki, çəkilən filmi digər sənədli filmlərdən fərqləndirən cəhət onun araşdırma xarakterli olmasıdır: "Məsələn, Türkiyəyə qarşı Balkan savaşları başlayan ərəfədə Bakıda zəngin insanlar xeyriyyə cəmiyyəti yaratmışdılar. Bu cəmiyyət tərəfindən müntəzəm olaraq Anadoluya yardımlar göndərilirdi. Bundan əlavə, Bakı sahibkarları Anadoluda kimsəsiz uşaqlar üçün uşaq evləri tikdirib, onların fəaliyyətinə vəsait ayırırdılar. Ruslar müharibə zamanı əsir düşmüş türk uşaqlarını xristianlaşdırırdılar. Azərbaycanlılar bunun qarşısını alırdılar. Bu məqamları da aşkara çıxardıq. Amma bu məqamlar filmdə əksini tapmadı. Çünki filmdə biz əsasən 1920 -1922-ci illərdəki hadisələrdən bəhs edirdik".

Oktyabrın 28-də Azərbaycan Kinematoqrafçılar İttifaqının zalında filmin təqdimatı olmuşdur.

ЛИЧНОСТИ

БЕСПОЩАДНАЯ БЛАГОДАТЬ ОТ ГЕНРИ ФОРДА



Гениальное рацпредложение Форда (Henry Ford, 1863-1947), 95 лет назад внедрившего на своем заводе конвейер, позволило сделать автомобиль массовым средством передвижения, а ему самому - стать миллиардером.

